## Şərqi Zəngəzur və Qarabağ Azərbaycanın inkişaf etmiş bölgələrindən olacaq




5

**Səs**

№ 161 (6602) 7 sentyabr 2022-ci il. Qiymәti 60 qәpik

“ADEX” və ”Securex Caspian” sərgiləri:

# beynəlxalq hərbi-texniki əməkdaşlıq üçün əla platforma!




2

# DİL MƏSƏLƏSİ: necə yazaq, necə danışaq?




8

## “Azərbaycan hər zaman təxribatların cavabını verir”



10

## Rusiyalı ekspertlər: “Moskva özünü etibarsız Paşinyan rejimindən uzaqlaşdırır”



15

## “Ermənistan öz terrorçu mahiyyətinə sadiqlik nümayiş etdirir”




10

11



## Torpaq - zəhmətin əlifbası



14

## Müsavatçı hüquq müdafiəçisi partiya başqanlığına “od püskürdü”!



16

## Bir gecədə 2 mağazanı qarət edən şəxs “isti izlər”lə tutulub

# “ADEX” və ”Securex Caspian” sərgiləri: beynəlxalq hərbi-texniki əməkdaşlıq üçün əla platforma!

**İLHAM ƏLİYEV: "Azərbaycan Silahlı Qüvvələrini və ölkəmizin müdafiə qabiliyyətini daha da gücləndirəcəyik"**

***Prezident İlham Əliyev sentyabrın 6-da Bakı Ekspo Mərkəzində keçirilən IV Azərbaycan Beynəlxalq Müdafiə ”ADEX” və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə ”Securex Caspian” sərgiləri ilə tanış olub. Əvvəlcə dövlətimizin başçısı Bakı Ekspo Mərkəzinin daxili pavilyonlarındakı stendlərlə tanış oldu.***

Müdafiə naziri Zakir Həsənov, müdafiə sənayesi naziri Mədət Quliyev və Türkiyənin Baş qərargah rəisi Yaşar Güler dövlətimizin başçısına sərgi haqqında məlumat veriblər.

Bildirilib ki, builki sərgidə dünyanın 30-a yaxın ölkəsindən 200-dən artıq şirkət iştirak edir. Müasir silah və texnikanın nümayiş etdirildiyi bu genişmiqyaslı tədbir pandemiyanın yaratdığı məcburi fasilədən sonra yenidən keçirilir. Sərginin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, o, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı Zəfərdən sonra ilk dəfə təşkil olunur. Sərgidə Azərbaycan Ordusunun Qələbəsində müstəsna rol oynamış ölkənin hərbi-sənaye kompleksinin gücü və qüdrəti, müasir silahlar nümayiş olunur.






Bundan başqa Prezident İlham Əliyev sentyabrın 6-də keçirilən Dördüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarına müraciət də ünvanlayıb. ”Biz, qarşıdan gələn dövrdə də müasir silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsalına xüsusi diqqət yetirməklə Azərbaycan Silahlı Qüvvələrini və ölkəmizin müdafiə qabiliyyətini daha da gücləndirəcəyik.

Əminəm ki, ”ADEX-2022” sərgisi faydalı təcrübə mübadiləsinin aparılmasına, yeni əməkdaşlıq əlaqələrinin qurulmasına əlverişli imkan yaradacaq və Azərbaycanın müdafiə sənayesinin elmi-texnoloji potensialının artırılmasına öz müsbət töhfəsini verəcəkdir”, - dövlət başçısı bildirib.

Prezident İlham Əliyevin Dördüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarına məktubunda onu da vurğulayıb ki, XXI əsrin müharibəsini aparmış Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsi bu gün inkişaf etmiş ölkələrin hərbi mərkəzlərində diqqətlə öyrənilir: ”Son dərəcə çətin relyef şəraitində ən müasir döyüş silahlarını tətbiq etməklə Azərbaycan Silahlı Qüvvələri düşmənin möhkəmləndirilmiş müdafiə xətlərini yarmış və sürətlə irəliləyərək cəmi 44 gün ərzində onu təslim olmağa məcbur etmişdir. Azərbaycanın tarixi qələbəsi göstərdi ki, hərbi sahədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün müasir ordu quruculuğu, ölkənin hərbi qüdrətinin yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi son dərəcədə əhəmiyyətlidir”.




**Azərbaycan öz Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına xüsusi önəm verir**

”Azərbaycan Respublikası öz Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına və maddi-texniki bazasının gücləndirilməsinə daim xüsusi önəm verir”. Bu fikirlər Prezident İlham Əliyevin Dördüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarına məktubunda yer alıb.

Dövlətimizin başçısı bildirib ki, ölkəmiz hərbi-texniki sahədə dünyanın qabaqcıl dövlətləri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, milli müdafiə sənayesi sahəsində də imkanlarını genişləndirir: ”Hazırda Azərbaycan aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın 50-dən çox ölkəsinin aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir, ölkəmizin müdafiə sənayesi müəssisələrində istehsal olunan məmulatların həcmi ildən-ilə artır”.

Göründüyü kimi, Azərbaycan Prezidentinin bu fikirləri güclü və xarizmatik dövlət başçısı və qətiyyətli lider olduğunun bir daha göstərin. Çünki tarix boyu həmişə belə olub ki, sərkərdəsi güclü olan ordu qalib olub, eynilə biz bu tarixi canlı olaraq yaşadıq. Xalq və ordu birliyi bütün dünya xalqlarına bir nümunə oldu.

**Biz ilk dəfədir Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik**

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ”Dəmir yumruq” əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığını nümayiş etdirərək bütün dünyaya öz gücünü, qüdrətini göstərdi. Ermənistan və havadarları tərəfindən işğal olunmuş torpaqlarımız əsgər və zabitlərimizin qanı və canı bahasına azad edildi. Bu, Prezident İlham Əliyev tərəfindən son 19 il ərzində həyata keçirilən ”Güclü ordu - güclü dövlət” strategiyasının və ”Dəmir yumruq” siyasətinin nəticəsidir. Prezident, Ali Baş Komandan İlham Əliyev ötən il iyunun 26-da Silahlı Qüvvələr Günün 103-cü ildönümü ilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündəki nitqində qürur hissi ilə qeyd edib ki, biz ilk dəfədir Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik: ”İyunun 26-sı Silahlı Qüvvələr Günüdür.

*Ardı Səh. 3*







# "ADEX" və "Securex Caspian" sərgiləri: beynəlxalq hərbi-texniki əməkdaşlıq üçün əla platforma!

Əvvəli Səh.2

Bu günü biz hər il təntənə ilə qeyd edirdik. Müxtəlif tədbirlər keçirilirdi. Hər il 26 iyun tarixində hərbçilərlə görüşlər əsnasında mən deyirdim ki, gün gələcək biz öz doğma torpağımıza qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Deyirdim ki, əgər bu, danışıqlar yolu ilə mümkün olmayacaqsa, məsələni hərbi yolla həll edəcəyik. Belə də oldu. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etmişdir",-deyən dövlət başçısı vurğulayıb ki, bu tarixi nailiyyətdir. "Biz şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Dəfələrlə demişdim ki, şəhidlərimizin qanı yerdə qalmayacaq. Belə də oldu. İkinci Qarabağ müharibəsi Azərbaycanın tam Qələbəsi ilə nəticələndi", deyən Ali Baş Komandan söyləyib ki, bu Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır: "Biz bütün gücümüzü səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib, düşməni məğlub etdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik!... Çünki nəyi demişiksə, onu da etmişik".

Dövlət başçısı çıxışı zamanı onu da bildirdi ki, biz cəsarət göstərdik, milli ruh nümayiş etdirdik və istədiyimizə nail olduq: "Bir daha demək istəyirəm ki, İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq".

Bəli, Ali Baş Komandan 44 gün davam edən İkinci Vətən müharibəsində nəyi, nə vaxt edəcəyini bildiyi üçün bu Qələbə qazanıldı. Bu Qələbə son 19 illik hakimiyyəti dövründə Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatına diqqət və qayğısı nəticəsində əldə olundu. Məhz Prezident İlham Əliyevin bu ali diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda hərbi sənaye kompleksi də yaradıldı. Bu gün Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur. Rəşadətli Ordumuz öz gücünü 2016-cı ilin aprel ayında bir daha sübut etdi. Aprelin 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza yenidən qələbə sevinci yaşatdı.



Azərbaycan Ordusunun daha bir uğuru Aprel döyüşlərindən iki il sonra - 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə də, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu.

Bəli, bu həmrəylikdən - "Dəmir yumruğa"a gedən, güclənən, möhkəmlənən Qalib Ordudur.

## Bu... 44 gündə mümkünsüzü mümkün edən güclü Azərbaycan ordusudur

Bu ulu öndərin uğurlu siyasətinin layiqli davamçısı son 19 ildə Prezident İlham Əliyevin diplomatik və "Dəmir siyasəti" nəticəsində 44 gündə mümkünsüzü mümkün edən, 30 illik torpaq həsrətinə son qoyaraq qələbə Zəfərinə nail olan Güclü Azərbaycan Ordusunun Qələbəsidir! Bu Zəfər qələbəsi Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaratdı. Silahlı Qüvvələrimiz döyüş meydanında öz qəhrəmanlıqlarını sərgilədi.Bəli, bu qələbə Prezident İlham Əliyevin "nəyi nə vaxt, necə etmək lazım olduğunu bilərək, "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin nəticəsidir və bu siyasətinin doğru olduğunu Azərbaycana və beynəlxalq ictimaiyyətə sübut etdi. Çünki dövlət başçımız iqtisadi sahədə əldə etdiyimiz gücü Ordumuzun müasir texnologiyalarla təchiz edilməsinə və peşəkarlığının artırılmasına yönəltdi.

2020-ci il sentyabrın 27-də başladığımız 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyev cənablarının "dəmir yumruğu" düşmənlərimizi acı və tarixi məğlubiyyətə düçar etdi. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat Ermənistanın məğlubiyyəti haqqında kapitulyasiya aktı oldu. Bu Bəyanatı imzalamaqla Dağlıq Qarabağ ifadəsi gündəmdən çıxdı və Azərbaycanda belə bir ərazi vahidi artıq mövcud deyil.

## Bu, Qələbə Prezident İlham Əliyevin "nəyi necə və vaxt etmək lazım olduğunu çox yaxşı bildiyi" siyasətin nəticəsidir

Bəli, Prezident İlham Əliyevin nəyi necə və vaxt etmək lazım olduğunu çox yaxşı bildiyi siyasətin nəticəsi budur. Azərbaycan Prezidenti İlham Əliyev xalqa dəfələrlə etdiyi müraciətlərində bildirib ki, biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq: "Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir".

Bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Ali Baş Komandanın rəhbərliyi ilə bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələrinə çevrilib, regionun və dünyanın 50 güclü orduları sırasına yüksəlib. Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından Azərbaycan nümunəvi dövlət olaraq qəbul edilir.

Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğu nəticəsində Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verə bilən ordu kimi formalaşıb. İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərdən sonra isə ordumuzun daha da modernləşməsi istiqamətində qarşıya yeni vəzifələr, tələblər qoyulub. Peşəkar ordunun formalaşdırılması çoxşaxəli prosesdir. Bunun üçün uzun illər, bəzən onilliklər tələb olunur. Ancaq İlham Əliyevin hərbi islahatları bir daha təsdiq edir ki, Azərbaycan Prezidenti həm də mahir sərkərdədir. Bu gün Baş Komandanın müəyyən etdiyi konkret planlar, tədbirlər əsasında hərbi islahatlar davam edir və ordumuzun arsenalı daha da gücləndirilir.

Bütün bu islahatlar onu deməyə əsas verir ki, Azərbaycan Silahlı Qüvvələri getdikcə daha da güclənir və dünyanın qüdrətli hərbi güclərindən birinə çevrilir. Əminliklə deyə bilərik ki, həyata keçirilən hərbi islahatlar nəticəsində Azərbaycan Ordusu qüdrətini daha da artıracaq, tam modern hərbi gücə çevriləcək.

Bir sözlə, Ümummilli Lider Heydər Əliyevin bir zamanlar bütün dünyaya bəyan etdiyi kimi, Azərbaycan vətəndaşının ən gözəl sabahları öndədir, ən qüdrətli zamanları irəlidədir! Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir! Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, müasir müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir. Bu əsəri zənginləşdirən Ümummilli Liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində bütün sahələrdə davamlı uğurlara imzanın atılması, Azərbaycanın dünya dövlətlərinin imzaları arasında imzasının olmasıdır. Bu, Heydər Əliyev işığının nurlandırdığı yolun davamçısı Prezident, Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev yolunun dönməz və sarsılmaz yoludur.

Bəli, Ruhun şad olsun, Ulu Öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəsində "Dağlıq Qarabağ" problemi yoxdur! Prezident İlham Əliyev bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır: "Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan-İtaliya tərəfdaşlığında yeni dövr

## Azərbaycan Prezidenti: "İtaliya şirkətlərinin gördüyü işlər miqyasına görə Türkiyə şirkətlərindən sonra ikinci yerdədir"

***Azərbaycan üçün mühüm tərəfdaşlardan birinə çevrilən İtaliya ilə ölkəmiz arasında əlaqələrin inkişafına böyük təkan verən məqamların mövcudluğu dostluq münasibətlərinin şərtləndirən amildir. İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişafının nəticəsi olaraq İtaliya da tariximizin çətin zamanında ölkəmizlə həmrəylik nümayiş etdirdi.***

Əlbəttə ki, ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Son illərdə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən, siyasi-iqtisadi, ticarət, qanunvericilik, mədəniyyət, elm-təhsil sahələrində nailiyyətlər əldə olunub. Ölkə başçılarının qarşılıqlı rəsmi səfərləri mövcud münasibətlərin inkişafını daha da yüksəldib. Səfərlər çərçivəsində bir çox razılaşmalar və strateji tərəfdaşlıq haqqında mühüm sənədlər imzalanıb. Azərbaycanın işğaldan azad olunan ərazilərində dost ölkələrlə yanaşı, İtaliyanın da yaxından iştirakı əlaqələrin davamlığına söykənir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinin müxbirinə verdiyi müsahibəsində bildirdiyi kimi, "İtaliya şirkətləri işğaldan azad olunan ərazilərdə aktiv fəaliyyət göstərirlər: "İtaliya şirkətlərinin gördüyü işlər miqyasına görə Türkiyə şirkətlərindən sonra ikinci yerdədir. Türkiyə şirkətlərinin birinci yerdə olması təbiidir. Çünki Türkiyə bizim müttəfiqimiz, yaxın dostumuz və qonşumuzdur. Onların məşhur tikinti şirkətləri var. İkinci yerdə isə İtaliya şirkətləridir. Mən sizə misal göstərə bilərəm. Məsələn, bizim Memorial və Zəfər muzeylərimiz təkcə Bakıda deyil, işğaldan azad olunmuş şəhərlərdə də İtaliya şirkətləri tərəfindən dizayn olunub və tikiləcək. İtaliya şirkətləri işğaldan azad olunmuş dörd rayonda - Ağdam, Füzuli, Qubadlı və Kəlbəcərdə elektrik stansiyalarını avadanlıqlarla təchiz edib."

### "ŞUŞADA TİKİLƏCƏK YENİ MƏSCİDİN LAYİHƏSİ İTALİYA ŞİRKƏTİNƏ HƏVALƏ OLUNUB"

İtaliyanın daha bir şirkəti Azərbaycanın xahişi ilə Şuşada yeni məscidin layihəsini dizayn edib və onu icra edəcək. "Şuşada tikiləcək yeni məscidin layihəsi İtaliya şirkətinə həvalə olunub. Bu, o deməkdir ki, bizim aramızda çox yüksək dərəcədə etimad var və bu addımı atmışıq. Bizim böyük planlarımız da var. Məsələn, bərpaolunan - külək, günəş və su elektrik stansiyalarının qurulmasında daha çox İtaliya şirkətini dəvət etmək üçün böyük planlarımız var, - deyə Prezident bildirib.

İtaliya şirkətlərinin Azərbaycan tərəfindən maliyyələşdirilən və Azərbaycanda İtaliya şirkətlərinin icra etdiyi müqavilələrin dəyəri milyard dollardan çoxdur. Dövlət başçısının qeyd etdiyi kimi, "Beləliklə, İtaliya Azərbaycanda yaxşı təmsil olunub. Lakin əminəm ki, işğaldan azad olunan bölgələrdə Türkiyədən sonra öz ikinciliyini bütün yenidənqurma prosesi zamanı qoruyub saxlayacaq".

İtalyan şirkətlərinin azad edilmiş ərazilərdə və Azərbaycanın digər yerlərində çoxsaylı tikinti layihələrində iştirakı dostluq münasibətlərinə əsaslanır. İşğaldan azad olunan bölgələrdə aparılan infrastruktur layihələrin həyata keçirilməsində italyan şirkətləri fəaldırlar. Azərbaycana dost olan İtaliya şirkəti ilə enerji istehsalı barədə də müqavilə imzalanıb. Azad olunmuş ərazilərdə enerji istehsalı üçün böyük potensial var. Bunlar yenilənən enerji mənbələrindən - su, günəş və küləkdən alınan enerjilərdir. Ölkəmiz azad olunmuş ərazilərdə İtaliyanın kənd təsərrüfatının inkişafı təcrübəsindən də yararlanmaq niyyətindədir.

### "TANAP-I 16 MİLYARD KUBMETRDƏN 32 MİLYARD KUBMETRƏ QƏDƏR GENİŞLƏNDİRMƏLİYİK"

Əlbəttə ki, siyasi münasibətlər və strateji tərəfdaşlıq, iqtisadi-ticarət sahəsində əməkdaşlıq mühüm rola malikdir. İtaliya Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır. İtaliya həm də TAP layihəsinin iştirakçısıdır. "Hazırda Avropaya qaz nəql edən boru kəmərimiz TAP-ın ötürmə qabiliyyətinin milyard kubmetr olduğunu bildirən Cənab Prezident qeyd edib ki, onu 20 milyard kubmetrə çatdırmalıyıq. Azərbaycanın ehtiyatlarının həcminə gəlincə dövlət başçısı bunun ən azı 2,6 trilyon kubmetr qaz təşkil etdiyini vurğulayıb: "Potensial olaraq biz Avropaya 20 milyard kubmetrdən artıq da qaz ixrac edə bilərik. Lakin biz anlamalıyıq ki, Avropa bizim üçün yeganə bazar deyil. Biz Türkiyəni İtaliya ilə eyni həcmdə qazla təchiz edirik Biz TANAP-ı genişləndirməliyik. Biz TANAP-ı 16 milyard kubmetrdən 32 milyard kubmetrə qədər genişləndirməliyik. Bəli, bunun üçün bizə yeni kəmər tikmək lazım olmayacaq. Bizə yalnız kompressor stansiyalarının istifadəyə verilməsi lazım olacaq. Bu isə sərmayə gözləyir".

Cənub Qaz Dəhlizi Azərbaycan və İtaliyanın enerji sahəsində tərəfdaşlığına zəmindir. Cənub Qaz dəhlizi müxtəlif ölkələrdən ibarət geniş bir qrupun birgə səyləri nəticəsində ərsəyə gələn çox əhəmiyyətli nailiyyətdir. Onu da qeyd edək ki, İtaliya Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində çox önəmli rol oynayır və xüsusilə də, neft sənayesinin inkişafına təkan verir. İtaliyanın 100-dən çox şirkəti hazırda Azərbaycanda fəaliyyət göstərir. İstər dizayndan turizmə, istər aqrar sənayedən yaşıl texnologiyaya və istərsə də nəqliyyatdan logistikaya qədər hər bir sahədə Azərbaycanda italyanlar fəaliyyət göstərir.

### MÜŞTƏRƏK LAYİHƏLƏR - DOSTLUQ VƏ ƏMƏKDAŞLIĞIN DAVAMI

Azərbaycan İtaliya ilə iqtisadi əlaqələrinə böyük diqqət yetirir və onların inkişafında və güclənməsində maraqlıdır. Vurğulamaq yerinə düşər ki, son illər ərzində İtaliya davamlı olaraq Azərbaycanın xarici ticarət dövriyyəsinin ölkələr üzrə strukturunda birinci yerə sahib olan aparıcı ticarət tərəfdaşıdır. İtaliya ilə Cənubi Qafqaz arasında ticarət dövriyyəsinin 95%-i Azərbaycanın payına düşür. Azərbaycan ötən il İtaliyaya 9,6 milyard dollar, bu ilin 7 ayında isə 11 milyard dollar həcmində təbii qaz ixrac edib. Tərəfdaşlığımız uğurla həyata keçirildiyini müsahibəsində bildirən dövlət başçısı ölkələrarası ikitərəfli gündəliyimizin getdikcə genişləndiyini qeyd edib. Bunun isə əsas hissəsini enerji və ticarət təşkil edir.Lakin bunlar yeganə mövzular deyil, deyən Prezident bildirib ki, səfirliyimizin yeni binasında biz İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı sənədlərin mübadiləsinə həsr edilmiş gözəl mərasimin şahidi olduq: "Bunlar ADA Universiteti və İtaliyanın beş universiteti - Luiss Universiteti, Turin Politexnik Universiteti, Milan Politexnik Universiteti, Bolonya Universiteti və Romanın Sapienza Universitetidir. Gözəl məkanda yerləşən universitet binası inşa edilməkdədir və 2024-cü ilin sonunadək hazır olacaq". İki ölkənin təhsil müəssisələri arasında da əlaqələr genişlənir. Əbəs deyil ki, bu gün İtaliyanın müxtəlif universitetlərində mindən çox azərbaycanlı tələbə təhsil alır. Ölkələrimiz arasında eyni zamanda, mədəniyyət, elm, təhsil, humanitar sahələrdə önəmli mübadilələrin və layihələrin həyata keçirilməsi Azərbaycan və İtaliya arasında salınan körpünün daha da möhkəmləndirir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan beynəlxalq əlaqələr müasir dövrümüzdə daha da möhkəmlənir. Əlbəttə ki, Azərbaycanla İtaliya arasında əlaqələrin inkişafına böyük təkan verən məqamların mövcudluğunu şərtləndirən xeyli sayda nümunələr var. Bu əlaqələrin qurulmasında Heydər Əliyev Fondunun da müstəsna rolu var. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən İtaliyada həyata keçirilən layihələr bu ölkənin mədəni irsinin qorunması baxımından önəmlidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti nəticəsində İtaliyada mədəni və humanitar sahələrdə, o cümlədən, mədəni abidələrin bərpası ilə bağlı bir sıra layihələr həyata keçirilib. Bəşəriyyət üçün önəmli dəyər olan Roma katakombaları Fondun dəstəyi ilə yenidən həyat qazanıb. Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası Müqəddəs Taxt-Tacın və Azərbaycanın müştərək layihəsinin tərkib hissəsidir.İtaliyanın Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpa olunmasında fəal iştirakı, iqtisadi layihələrin həyata keçirilməsində fəallığı iki ölkə arasında münasibətlərdə yeni müstəviyə yüksəlir.

***Zümrüd BAYRAMOVA***



## Zakir Həsənov Türkiyənin Baş Qərargah rəisi ilə görüşüb

Sentyabrın 6-da Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2022" 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler ilə görüşüb.

Bu barədə S?A-ya Müdafiə Nazirliyindən bildirilib. Görüşdə Azərbaycan ilə Türkiyə arasında regional təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlıq, qarşılıqlı səfərlərinin təşkili, eləcə də maraq doğuran digər məsələlər müzakirə olunub. Tərəflər birgə hərbi təlimlərdə texnoloji innovasiyalardan istifadə edilməsinin əhəmiyyətini xüsusi vurğulayıb.



## SABİQ SƏFİR: "Azərbaycan öz bölgəsində parlayan ulduzdur"

"Ulu Öndər Heydər Əliyevin təməli qoyduğu Azərbaycan gündən-günə inkişaf edir. Ulu Öndər hakimiyyətə gəldikdən sonra Azərbaycan üçün yeni bir mərhələ başladı". Bu sözləri S?A-ya açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri, İMZA Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə nümayəndəsi Hulusi Kılıç deyib.

Onun sözlərinə görə, Ulu Öndərin fikrincə iqtisadi gücü olmayan dövlətlərin siyasi və hərbi gücü olmaz: "Artıq Azərbaycaniqtisadi gücü olduğuna görə, həmçinin də siyasi və hərbi gücü də var. Bunu 44 günlük Vətən müharibəsi zamanı sübut edib. Bu gün Avropa İttifaqının Azərbaycana verdiyi önəmi açıq şəkildə görə bilirik. Bu gün Azərbaycan Avropa və Balkan ölkələrinə qaz ixrac edir. Bu, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Hazırda regionda torpaqlarını işğaldan azad etmiş, güclü bir Azərbaycan var. Azərbaycan ilə Türkiyə arasındakı dostluq münasibətləri dünyanın diqqət mərkəzindədir. Həmçinin hər iki ölkənin də Türk Dünyası Dövlətləri Təşkilatındakı yeri çox önəmlidir. Azərbaycan öz bölgəsində parlayan ulduz, gündən-günə güclənən dövlətdir".

***Arzu Qurbanlı***




# Şərqi Zəngəzur və Qarabağ Azərbaycanın inkişaf etmiş bölgələrindən olacaq

## *İlham Əliyev: "Hər gün inkişafla bağlı daha bir addım atılır"*

Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə hər səfərləri çərçivəsində yeni müəssisələrin təməlqoyma mərasimləri, eləcə də açılışı bu yerlərdə aparılan yenidənqurma, bərpa-quruculuq işlərinin yüksək səviyyədə qurulmasından xəbər verir. Dünyanın bir sıra ölkələrindəki şirkətlərin Qarabağda aparılan tikinti-bərpa işlərinə qoşulması da görülən işlərin sürətindən və müasir standartlara uyğun olaraq qurulmasına dəlalət edir. ”Azərbaycan azad olunmuş ərazilərdə artıq irimiqyaslı infrastruktur layihələrinin icrasına başlayıb. Biz birinci beynəlxalq hava limanını istifadəyə vermişik. İkinci beynəlxalq hava limanının uçuş-enmə zolağı artıq fəaliyyət göstərir və tezliklə hava limanının açılışı olacaqdır. Biz elektrik stansiyaları tikmişik və elektrik xətləri çəkmişik. Avtomobil yolları, tunellər, körpülər və dəmir yolları inşa edirik. Bütün işlər gedir və biz bu işləri yalnız qonşular ilə bağlılığı təmin etmək və daxili istifadə üçün görmürük. Bu səylər, həmçinin Ermənistan vasitəsilə Azərbaycanı özünün Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin icrasına yönəldilib.” Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çernobbio şəhərində İtaliyanın ”İl Sole 24 Ore” qəzetinə müsahibəsində bildirib.

Əlbəttə ki, Prezident İlham Əliyevin siyasətində həyata keçirilən əsas prioritetlər vətənin müdafiəsi və xalqın rifahıdır. Vətən müharibəsinin 44 günü ərzində Ali Baş Komandanın rəhbərliyi ilə dövlətimiz beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutaraq öz ərazilərini azad etmək hüququndan istifadə etdi və qısa bir zamanda genişmiqyaslı əks-hücum əməliyyatlarını böyük uğurla həyata keçirdi. Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinin miqyası günü-gündən genişlənir. Ermənlərin ərazilərimizə vurduğu ciddi ziyan aradan qaldırılır və qurulan şəhərlər, kəndlər yeni bir ab-havanı bu ərazilərə gətirir. Qeyd edək ki, dövlətimizin başçısının və birinci xanımın Şuşaya, Ağdama və digər ərazilərimizə səfərləri əhəmiyyətli hadisələrlə yaddaşlara və tariximizə çöküb. Təkcə Füzuli rayonuna səfər çərçivəsində həmin ərazidə 180 çarpayılıq xəstəxananın, peşə liseyinin, həmçinin yeni parkın təməlinin qoyulması ilə yadda qaldı. Füzuli şəhərində Peşə Liseyinin təməlinin qoyulması da bu istiqamətdə həyata keçirilən layihələrdən biridir. Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməli qoyulub. Peşə Liseyinin ərazisi 3,2 hektar sahəni əhatə edəcək. Kompleksdə tədris, laboratoriya təcrübələri, idman binaları və meydançası yaradılacaq. Burada, həmçinin avtomobil təmiri emalatxanası, avadanlıq və texnika, təsərrüfat anbarları, təsərrüfat qurğusu, praktik təlimlər qurğusu da inşa ediləcək. Füzuli şəhər Peşə Liseyinin inşası zamanı yaşıllıq zolaqlarının yaradılması xüsusilə diqqətdə saxlanılıb. Belə ki, yaşıllıq sahəsi bu kompleksin ərazisinin 43,7 faizini təşkil edəcək. Burada yaradılacaq idman meydançasının sahəsi 540 kvadratmetr olacaq. Lisey ildə 800-yə yaxın tələbə qəbul etməklə yanaşı, 1000-dək tələbə üçün qısamüddətli kurslar və ömürboyu təhsil proqramları təmin etmək imkanında olacaq.






**”BU TORPAQLARIN SAHİBLƏRİ ARTIQ QAYITMIŞIQ VƏ BU TORPAQ, BU SƏMA BUNU GÖRÜR”**

Digər ərazilərdə də görülən işlər diqqəti cəlb edir. Qarabağın incisi Şuşada aparılan abadlıq, bərpa işləri ilə miqyasına görə diqqəti çəkir. Şuşadakı inzibati binada, Şirin su hamamında, tarzən Sadıqcanın evində, Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri, məscid və mədəni abidələrin bərpası və yenidən qurulması, Azərbaycanın mədəniyyət paytaxtı elan olunan Şuşada Xarıbülbül Beynəlxalq Folklor Festivanın, Vaqif poeziya günlərinin təşkili və s. qələbəmizin böyük təntənəsindən doğan böyük bir məsləkin yüksək səviyyədə həyata keçirilməsinə söykənir. Cənab Prezident çıxışlarının birində bildirdiyi kimi, ”Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik”.

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Şuşada inşa olunan 1 nömrəli məktəbin tikintisi davam edir. Məktəbin tikintisi cari ilin dekabr ayında yekunlaşacaq. Eləcə də Ağdam şəhərində məktəb tikintisi davam etdirilir. Hər iki şəhərdə ümumilikdə 960 şagird yerlik təhsil müəssisələri inşa olunur. Zəngilan rayonunun Ağalı kəndində isə həyata keçirilən ”Ağalı kənd” layihəsi çərçivəsində 288 şagird yerlik tam orta məktəb inşa olunub.İşğal altında yerləşən yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib.

### YENİ VƏ QAYNAR BİR DÖVR

44 gün ərzində Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa edib. Artıq Azərbaycanın qarşısında yeni yollar açılıb, yeni, qaynar bir dövr başlayıb. Erməni vəhşiliyi, vandallığı bu gün işğaldan azadolunana bölgələrə səfər edən hər kəsi təəccübləndirir. ”Qafqazın Xirosiması” adlanan Ağdamada yeganə salamat bina şəhər məscididir. Bu müqəddəs məkanda da ermənilər ondan donuz tövləsi kimi istifadə ediblər. Bütün bunlara baxmayaraq Azərbaycan dövləti bütün bölgələri abadlaşdırır.

Bilirik ki, dövlətimiz sakinlərin öz yurdlarına daha tez qayıtmaları üçün əlindən gələn hər şeyi edir. Görülən işlər və həyata keçirilən layihələr bizə deməyə əsas verir ki, Şərqi Zəngəzur və Qarabağ Azərbaycanın inkişaf etmiş bölgələrindən biri olacaq və orada mövcud olan iqtisadi potensial ölkəmizin gücünə yeni güc qatacaq.

Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni reallıqlara MƏNTİQİ BAXIŞ

**Mövcud geosiyasi reallıq ondan ibarətdir ki, həqiqətən də Ermənistanın artıq arxalanacağı heç bir güvənc yeri, dayaq biləcəyi heç bir qüvvə yoxdur. Bu zamana qədər ermənilərin arxa, dayaq saydıqları da dünyanın yeni reallıqları ilə artıq barışıblar və belə bir vəziyyətdə onlar kömək etmək, dəstək olmaq üçün heç bir imkana sahib deyillər, çünki ermənilərin işğalçı və nəticə etibarı ilə haqsız olduqları növbəti dəfə isbat olunub. Artıq 44 günlük müharibə vaxtı kimin doğru, eləcə də müharibədən sonrakı zaman ərzində kimin haqlı, kimin haqsız olduğu üzə çıxıb və bütün dünya həqiqəti, reallığı etiraf etməkdədir.**

Brüsseldə Avropa Şurasının sədri Şarl Mişelin vasitəçiliyi ilə Ermənistanın baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti cənab İlham Əliyev arasında üçtərəfli görüş oldu. Bu görüşün nə ilə yadda qaldığı hər kəsə məlumdur. Bununla belə, həmin görüş barədə, onun nəticələri barədə hələ çox müzakirələr olacaq, bütün təfərrüatları açılaraq ortaya qoyulacaq. Erməni əsilli politoloqlar belə müxtəlif yanaşmalarla çıxış edirlər, çünki bu görüşün maraqlı və diqqəti cəlb edən məqamları kifayət qədərdir. Məsələ burasındadır ki, ermənilər, ümumilikdə erməni cəmiyyəti görüşün təfərrüatlı nəticələrinin hələ müzakirə edilməli olduğu qənaətindədir. Bununla belə, görüşün Ermənistanın xeyrinə bitmədiyini qəbul etmək üçün kifayət qədər əsaslar var və bunu ermənilər özləri də etiraf edirlər.

Sözügedən görüşdə Ermənistan tərəfinin arzuladığı dırnaqarası "status" məsələsi heç müzakirə də olunmayıb. Bunu dünyanın bir çox mətbuat səhifələri də xüsusilə vurğulayır və bu, heç də əbəs yerə, yaxud əsassız deyil. Əvvəla, ona görə ki, bütün dünya Ermənistanın həmin o dırnaqarası "status" iddiasının əsassız olduğunu etiraf edir. Digər tərəfdən qəbul edilir ki, bu bir uydurmadır və haqqında danışığa belə ehtiyac duyulmayıb. Ən əsası isə, Brüssel görüşü həmin məsələdə də Ermənistanın deyil, Azərbaycanın haqlı olduğu qənaətinə gəlmək üçün real mənzərədir və bunu da bütün dünya çox yaxşı görür. Görünən reallıq isə, təbii ki, mətbuat səhifələrində də öz əksini tapir, hansıki bu, erməniləri bərk qıcıqlandırır.

Həmçinin Ermənistanın qondardığı "hərbi əsir" söz-söhbətinə də görüşdə məhəl qoyulmayıb. Bu isə ondan xəbər verir ki, ümumiyyətlə, Avropa bu məsələni qəbul etmir. Müharibə bitdikdən sonra hardansa baş qaldıran, separatçılıqla, terrorçuluqla məşğul olan, təxribatlar törətmək üçün fəaliyyət göstərənlər Avropa üçün də elə terrorçu, separatçı, təxribatçı hesab olunur və burada Ermənistanın nə istəməsi, nə arzulaması nəzərə belə alına bilməz. Sözsüz ki, hər dəfə Ermənistan tərəfi hərbi əsirlərin olduğunu iddia edəndə Azərbaycan da öz növbəsində onların hərbi əsir deyil, terrorçu, separatçı, təxribatçı olduğunu bəyan edib. Artıq Brüssel görüşü göstərdi ki, Avropa, hətta bütün dünya Azərbaycanın bəyan etdiyi həqiqətlər qarşısında hansısa əks mövqe sərgiləmək fikrində deyil. Daha dəqiq desək, Azərbaycanın bu məsələdə də haqlı olduğu bir növ, yenə də etiraf edilir.

Ən nəhayət, görüşün sonuna qədər ATƏT-in Minsk qrupundan söz açılmayıb. Bu da təsadüfi deyil. Bilirik ki, uzun zaman idi, daha dəqiq desək, ələlxüsus 44 günlük müharibə bitdikdən sonra ermənilər durmadan ATƏT-in Minsk Qrupunun bir də müdaxilə etməsi üçün, həmin qurumun fəaliyyət göstərməsi, məsələyə qarışması üçün əldən-ayaqdan gedirdilər. Burada məqsəd bəlli idi. Əsas məqsəd o idi ki, 30 ilə yaxın məsələni uzadan, problem daha da dərinləşdirən ATƏT-in Minsk Qrupu yenə də prosesləri uzatsın, daha da dərinləşdirsin. Bu, ermənilərə sərf edən məqam olmalı idi və bunun üçün çalışırdılar. Bunu da nəinki Avropada, bütün dünyada bilməyən yox idi. Məsələ burasındadır ki, Azərbaycan tərəfinin də hər dəfə qeyd etdiyi kimi, ATƏT-in Minsk Qrupunun artıq nəinki məsələyə müdaxilə etmək imkanında, eləcə də halında olmadığını deməli, bütün dünya qəbul edir. Eyni zamanda qəbul edilir ki, ATƏT-in Minsk Qrupunun artıq heç bir rolu və funksiyası qalmayıb. Çünki Azərbaycanın problemi özü həll etdiyini, daha doğrusu "Qarabağ problemi" deyilən problemin qalmadığını hər kəs qəbul edir və bu halda hansısa quruma sözsüz ki, ehtiyac qalmıq. Bir sözlə, Azərbaycanın yaratdığı yeni reallıqlardan biri də, ATƏT-in Minsk Qrupuna ehtiyac qalmadığı beynəlxalq aləmdə qəbul edilir.




Xatırladaq ki, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Brüsselin sülhməramlı səylərini "psevdotəşəbbüs" adlandırıb. Təbii ki, Zaxarovanın nə deməsi, necə düşünməsi görüşün qarşısını alacaq məqam deyildi və görüş baş tutdu da, baxmayaraq ki, görüş Ermənistan üçün heç də sərfəli deyildi. Maraqlı məqamlardan biri də odur ki, Ermənistan üçün belə formatdan imtina etmək mümkün olmadı. Doğrudur, bu ayrı bir müzakirə mövzusudur və bununla bağlı geniş fikir mübadilələri, ümumiyyətlə, fikirlər var. Amma ən əsası, bir şey aydındır ki, bölgədi artıq yeni reallıqlar yaranıb və bu reallıqlar qarşısında Ermənistan bu zamana qədərki ərköyünlüyünü edə bilmir. Görüşdən də təbii ki, imtina etmək bu reallığın fonunda Ermənistana müyəssər olmayıb.

Daha bir reallıq ondan ibarətdir ki, qonşu dövlət olan və ermənilərin də güvəndiyi İran məsələyə bu zamana qədər nə müdaxilə edə bilməyib, nə də bu ölkənin mövqeyi nəzərə belə alınmayıb, hansıki bunu da Brüssel görüşündə gördük. Gördük ki, Azərbaycan nəinki İran, hətta ABŞ və Fransanın belə mövqeyindən asılı olmayaraq öz tələbləri ilə çıxış edir, haqlı olduğunu bəyan edir və bu da Avropada qəbul edilir, bu mövqeyimizə də hörmətlə yanaşılır. Müharibənin bitməsindən az qala iki ilə yaxın vaxt keçməsinə baxmayaraq, Ermənistanın özünə müttəfiq hesab etdiyi İran proseslərə, Azərbaycanın tələblərinə heç bir şəkildə mane ola bilmir. Avropa İttifaqında da Azərbaycanın mövqeləri artıq dəstəklənir və mövqelərimiz daha da möhkəmlənir. Bunu da Brüssel görüşü, bu görüşün gedişi bir daha təsdiq etdi. Təsdiq etdi ki, əvvəla, Avropa üçün Azərbaycan daha böyük maraq dairəsində olan ölkədir. Digər tərəfdən də təsdiq etdi ki, Azərbaycan həqiqətləri, ölkəmizin haqq işi, tarixi ədalətin bərpası, BMT-nin məlum Qətnamələrinin real icrası istiqamətində gördüyü praktik işlər artıq qəbul olunur. Qəbul olunur ki, Azərbaycan bölgədə yeni reallıqlar yaradıb.

Bu da bir reallıqdır ki, indi dünya ölkələrinin, ələlxüsus inkişaf etmiş, hegomonluq iddiasında olan ölkələrin əksəriyyətinin yetərincə problemi var. İranın özü Rusiyanı zəifləməsini gözləyir və bu fonda da Qərblə sövdələşməyə hazırdır. ABŞ kimi bir ölkə üçün iqtisadi məsələlərə görə Çin düşmən gözündə görünür. Çin də az problemlərlə üz-üzə deyil. Rusiya da bir hesablaşılan dövlət olmasına baxmayaraq, indi çətin durumdadır. Ukrayna ilə müharibə bu ölkəyə kifayət qədər ziyan vurub. Sanksiyalar Rusiyanı kifayət qədər titrədib. Bir sözlə, hər kəs öz problemləri ilə məşğuldur və bu problemlər kifaət qədərdir, bitməz, tükənməzdir. Belə olan halda, Ermənistan adlı hansısa bir cırtdan dövlət kimlərinsə, hansısa ölkələrin maraq dairəsində əlbəttə ki, ola bilməz.

Faktlar kifaət qədərdir. Dünya düzənində yeni reallıqlar ortaya çıxıb, hansıki bu reallıqlar göz önündədir və bunları təkzib etmək olmaz. Heç dünya da bu reallıqları təkzib etmir, sadəcə bu reallıqlara məntiqi baxış tələb olunur. Rusiya-Ukrayna müharibəsinin fonunda bütün dünyanın iqtisadi çətinliklərlə üzləşdiyi, qlobal böhranın, ələlxüsus taxıl tədarükü ilə bağlı ağır vəziyyətin yarandığı etiraf edilir və çətinliklər reallıq olaraq qəbul edilir. İndi əsas taxıl istehsalçısı olan Rusiya və Ukraynanın müharibə etməsi taxıl tədarükü məsələsində qlobal problem yaradıb və bunu hamı da çox yaxşı bilir. Hamı çox yaxşı bilir ki, qida təhlükəsizliyi məsələsi heç zaman olmadığı kimi diqqət mərkəzindədir və müvafiq problemlə əlaqədar tədbirlər görülür. Görəsən, Ermənistan bir dövlət olaraq bu reallıqları dərk etmək məcburiyyətində olduğunu anlayırmı? Yəni, yeni reallıqlara artıq məntiqi baxış gərəkir və ələlxüsus da Ermənistan üçün belə bir baxış olduqca vacibdir, qaçılmazdır. Yeni reallıqların qəbul edilməsi, onlara uyğun doğru addımların atılması indi Ermənistan üçün daha çox lazımdır, əks halda bu ölkənin fəlakətləri biri-birini əvəz edə bilər. Qlobal böhran, qida təhlükəsizliyi məsələləri, taxıl qıtlığı inkişaf etmiş ölkələrdə, ümumiyyətlə, bütün dünyada rezonans doğurduğu halda, Azərbaycanla müharibədən məğlub çıxmış, itgiləri hədsiz dərəcədə olan, səfalət içərisində inləyən bir dövlət, yəni Ermənistan məsələlərə, yeni reallıqlara məntiqi şəkildə baxmazsa, yanaşmazsa çox ağır nəticələrlə qarşılaşacağının fərqində olmalıdır. Ümumiyyətlə, dünya düzənindəki yeni reallıqlar məntiqi baxış tələb edir və adekvat addımların atılması gərəkir. İstər qlobal problemlər, istərsə də mövcud vəziyyətə uyğun məntiqi nəticə çıxarılması, buna müvafiq addımların atılması ən doğru yoldur. Mövcud reallıqlar, yeni həm dünyanın siyasi mənzərəsi, həm də iqtisadi məsələlərlə bağlı real vəziyyət, qlobal təhlükələr düşünülmüş, doğru istiqamət tələb edir ki, ələlxüsus, Ermənistanın timsalında səfalət içərisində olan hərhansı dövlət bunu mütləq şəkildə nəzərə almalıdır və yeni reallıqlara məntiqi baxış məhz bundan ibarətdir.

***İnam Hacıyev***

# Azərbaycan-İtaliya münasibətləri üçün yeni və uğurlu səhifə!

*İtaliya mediası Prezident İlham Əliyevin bu ölkəyə səfərini geniş işıqlandırıb*

**Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya işgüzar səfəri bu ölkənin çoxsaylı kütləvi informasiya vasitələrinin böyük marağına səbəb olub. AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində keçirilmiş görüşlər, Prezident İlham Əliyevin Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzinin təşkil etdiyi beynəlxalq forumdakı çıxışı zamanı səsləndirdiyi fikirlər və yerli KİV-lərə açıqlamaları ilə bağlı İtaliya mətbuatında 100-dək məqalə, məlumat və videoreportaj yayımlanıb.**

Qeyd edək ki, İtaliya KİV-ləri Azərbaycan Prezidentinin bu ölkəyə səfərindən öncə də səfərin əhəmiyyətinə və planlaşdırılan görüşlərin ikitərəfli əməkdaşlığın genişləndirilməsindəki önəminə geniş yer ayırıb.

### Çoxşaxəli strateji tərəfdaşlıq səviyyəsinə yüksələn Azərbaycan-İtaliya münasibətləri

Prezident İlham Əliyevin sentyabrın 1-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və Nazirlər Şurasının Sədri Mario Draqi ilə görüşlərinə dair bu ölkənin "RAI" televiziya kanalında gün ərzində reportajlar yayımlanıb. Reportajlarda bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyi, görüşlərdə çoxşaxəli strateji tərəfdaşlıq səviyyəsinə yüksələn ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olunduğu bildirilib.

Prezident Sercio Mattarella və Nazirlər Şurasının Sədri Mario Draqi ilə keçirilmiş görüşlərlə bağlı İtaliya Prezidentinin və Nazirlər Şurasının mətbuat xidmətlərinin məlumat və videoreportajları "La7", "il Messaggero", "İl Sole 24 Ore", "Affari Italiani", AGI", "Agenzia Nova", "Libero Quotidiano", "Borsa Italiana", "Italpress", "Italia Informa", "Notize Yahoo", "Tg cal24", "La Sicilia", "Mi-lorenteggio", "Gazzetta di Parma", "L'Edicola del Sud", "Blog Sicilia", "Audio press", "Giornale Partite Iva" kimi mətbuat orqanları da daxil olmaqla çoxsaylı kütləvi informasiya vasitələrində yayımlanıb.










### İtaliya-Azərbaycan Universiteti - ikitərəfli münasibətlərdə yeni səhifə

Səfər çərçivəsində Prezident İlham Əliyevin Azərbaycan Respublikasının İtaliyadakı səfirliyinin binasının açılışında iştirakı və İtaliya-Azərbaycan Universitetinin yaradılmasına dair imzalanmış sənədlərin mübadiləsi mərasimində söylədiyi fikirlərlə bağlı İtaliyanın aparıcı xəbər agentliklərindən olan "Askanews" tərəfindən hazırlanan və yayılan məlumatlar "Notize Yahoo", "Notizie Accadero", "Conquista del lavoro", "Notizie Tiscali", "Il Giornale d'Italia", "Finance Yahoo", "Agenzia Nova", "Italpress" kimi mətbuat orqanlarında da dərc olunub.

Azərbaycan Prezidentinin çıxışı zamanı sənədlərin mübadiləsi mərasiminin Romanın tarixi məhəlləsində yerləşən səfirliyin yeni binasında keçirilən ilk tədbir olduğunu vurğuladığı, bu binada keçirilən ilk tədbir məhz təhsil sahəsinə aid olmasının İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi kimi qiymətləndirdiyi və iki ölkənin təhsil sahəsində genişmiqyaslı əməkdaşlığa başladığını qeyd etdiyi bildirilib. Azərbaycanın İtaliyadakı səfirliyinin yeni binasının açılması tarixi hadisə kimi qiymətləndirilib və bunun iki ölkənin dostluq əlaqələrinin mühüm nümunəsi olduğu vurğulanıb.

"İl Sole 24 Ore" qəzeti isə İtaliya-Azərbaycan Universiteti ilə bağlı geniş məqalə dərc edib. Məqalədə Prezident İlham Əliyevin fikirlərinə xüsusi yer ayrılıb. Qeyd olunub ki, İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsində Azərbaycanın ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlər mübadilə edilib. Prezident İlham Əliyevin İtaliya-Azərbaycan Universitetinin İtaliya-Azərbaycan dostluğu mərkəzi olacağına əminliyini ifadə etdiyi qeyd olunub. İki ölkənin çox güclü siyasi-iqtisadi əlaqələr qurduğu, İtaliyanın Azərbaycanın birinci ticarət tərəfdaşı olduğu və ötən il qarşılıqlı ticarət dövriyyəsinin 9,6 milyard, cari ilin yeddi ayında isə 11 milyard dollara çatdığı bildirilib.

### Prezident İlham Əliyev: TAP-ın sərmayədarları boru kəmərinin genişləndirilməsini müzakirə edirlər

İtaliyanın nüfuzlu qəzetləri və xəbər agentlikləri Prezident İlham Əliyevin sentyabrın 2-də Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzinin təşkil etdiyi "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumunda əsas qonaq qismində iştirakına və beynəlxalq tədbirin plenar iclasında "Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu" mövzusunda çıxışı zamanı səsləndirdiyi fikirlərə geniş yer ayırıb. "Adnkronos", "Notize Yahoo", "La Ragione", "Finance Yahoo", "MSN", "İl Sole 24 Ore", "Finanza 24h", "Ultime Notizie", "Flamina&dintorni" kimi xəbər portallarında dərc olunan yazılarda Prezident İlham Əliyevin İtaliya ilə Azərbaycanın olduqca fəal siyasi dialoq qurduğunu, iqtisadi, enerji və təhsil sahəsində əlaqələrin inkişafını vurğuladığı bildirilib. Bir il yarım öncə istifadəyə verilən Trans-Adriatik (TAP) boru kəməri ilə Avropaya 13,5 milyard kubmetr təbii qaz nəql edildiyi, bu həcmin 11,7 milyard kubmetri İtaliyanın payına düşdüyü və cari ildə İtaliya bazarına 10 milyard kubmetr qaz nəqlinin planlaşdırıldığı qeyd olunub.

Materiallarda Azərbaycan Prezidentinin ötürmə qabiliyyəti 10 milyard kubmetr olan TAP boru kəmərinin hazırda tam gücü ilə işlədiyini, bu həcmin ən azı 20 milyard kubmetrə çatdırılmasının zəruriliyini bildirdiyi, bunun üçün əlavə maliyyə vəsaiti tələb edildiyini və Azərbaycanın investor kimi buna hazır olduğunu, lakin digər investorların da bu işdə iştirakının zəruriliyini qeyd etdiyi vurğulanıb. Prezident İlham Əliyevin Rusiya-Ukrayna müharibəsi başlayandan bəri Azərbaycanın qaz ixracının həcminin artırılması və ya ixraca başlanılması ilə bağlı 10-dan çox ölkədən rəsmi müraciət aldığını qeyd etdiyi bildirilib.

### Azərbaycan Prezidenti: Avropaya təbii qaz ixracını iki dəfə artırmağa hazırıq

Prezident İlham Əliyev səfər çərçivəsində İtaliyanın ən nüfuzlu mətbuat orqanlarından olan "İl Sole 24 Ore" qəzetinə geniş müsahibə verib. Müsahibə qəzetin həm çap versiyasında, həm də internet səhifəsində dərc olunub.

Azərbaycan Prezidenti müsahibəsində ölkəmizin təsdiq edilmiş təbii qaz ehtiyatlarının həcminin 2,6 trilyon kubmetr təşkil etdiyini, Avropaya nəql edilən qazın həcminin iki dəfə artırılmasının nəzərdə tutulduğunu, İtaliya, Yunanıstan və Bolqarıstanla müqavilələrin imzalandığını, qitənin digər ölkələrinə qaz nəqlinin qiymətləndirildiyini bildirib. Prezident İlham Əliyev İtaliyanın Azərbaycanın karbohidrogen resurslarını Avropanın digər yerlərinə ötürəcək ölkə olacağına əminliyini ifadə edib.

İtaliya şirkətlərinin işğaldan azad olunan ərazilərdə aktiv fəaliyyət göstərdiyini deyən Prezident İlham Əliyev bunun iki ölkənin münasibətlərimizin nə dərəcədə yaxın olduğunu göstərdiyini qeyd edib. Prezident İlham Əliyev Azərbaycanda bərpaolunan enerji-külək, günəş və su elektrik stansiyalarının qurulmasında daha çox İtaliya şirkətini dəvət etmək üçün böyük planların olduğunu vurğulayıb. İtaliya şirkətlərinin Azərbaycan tərəfindən maliyyələşdirilən və Azərbaycanda İtaliya şirkətlərinin icra etdiyi müqavilələrin dəyərinin 10 milyard dollardan çox olduğu qeyd edilib.

### İtaliya və Azərbaycan strateji tərəfdaşlığın gücləndirilməsinə doğru

Azərbaycan Prezidentinin səfərinin yekunları ilə bağlı İtaliyanın nüfuzlu "il Giornale" qəzetində analitik məqalə dərc olunub. Habelə "Askanews" xəbər agentliyinin səfər vaxtı Prezident İlham Əliyevin iştirak etdiyi tədbirlərdə söylədiyi fikirlər, keçirdiyi görüşləri ilə bağlı məqalə və videoreportajlar hazırlayıb. Həmin məlumatlar İtaliyanın çoxsaylı mətbuat orqanları, o cümlədən "İl Sole 24 Ore", "il Messaggero", "Quotidiano", "Notizie Tiscali", "Affari Italiani", "il Dolomiti", "Virgilio", "Notizie Tiscali", "Tiscali TV", "il Tempo", "Notizie Yahoo", "Finance Yahoo", "il Giornale d'Italia", "MSN", "Libero Quotidiano", "Today", "Notizie" və digər kütləvi informasiya vasitələri tərəfindən də yayılıb. Habelə "Kmetro0", "Scenari Internazionali", "Sardegnagol", "Giornale Diplomatico", "Gazzetta Diplomatica", "Globus Magazine", "Agenzia Nova" kimi mətbuat orqanlarında da səfərlə bağlı geniş məqalələr dərc olunub.

# Dil məsələsi: necə yazaq, necə danışaq?

**Bu gün günümüzdə əksər insanlar başqa dillərə maraq göstərir. Yeni dil öyrənmək çox yaxşıdır. Lakin öz dilimizi də unutmamalıyıq.**

Dil öyrənmək üçün ən yaxşı yollar bunlardır:

1. Dili həmin ölkədə öyrənin.




2. Xarici seriallara və filmlərə altyazılı baxın.
3. "Youtube" videolarından yararlanın.
4. Sevdiyiniz mahnıları tərcümə edin.
5. Asan kitablar oxuyun.
6. Öyrəndikləriniz haqqında özünüzlə danışın.
7. Öz lüğət dəftərinizi yaradın.

Xarici dil öyrənmək digər insanları başa düşməyinizi asanlaşdırır. Həmçinin, bu yolla fərqli mədəniyyətləri tanıyaraq dünyagörüşünüzü genişləndirə bilərsiniz. Öyrəndiyiniz dilin texno-




loji və mədəni inkişaflarını yaxından izləyə bilərsiniz. İş həyatında daha uğurlu ola və rəqiblərinizdən bir addım öndə ola bilərsiniz.

Dil öyrənmək beyniniz üçün əla məşqdir. Çoxdilli olmaq sizi çox tapşırıqları yerinə yetirməkdə daha yaxşı edir və yaddaşınızı yaxşılaşdırır. Sosial mediaya asan girişi təmin edir.

## Dilimizi xarici dillərin təsirindən xilas etmək üçün nə etmək lazımdır?

- Gündəlik həyatımızda öz sözlərimizdən istifadə etməliyik.
- Yad sözlərdən istifadə etməməyə diqqət etməliyik.
- İş yerlərinin adları və istifadə etdikləri lövhələr azərbaycanca olmalıdır.






## Dilimizi niyə qorumalıyıq?




Çünki fikirlərimizi, hisslərimizi, arzularımızı dilimiz vasitəsilə başqalarına çatdırırıq. Danışdığımız, yazdığımız dili yad sözlərin hücumundan qorumalıyıq.

Dilimiz haqqında Bəxtiyar Vahabzadənin belə bir şeiri var:

Ey öz doğma dilində danışmağı ar bilən,
fasonlu ədəbazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun,
Ancaq vətən çörəyi sizlərə qənim olsun.

Bu gün bir çoxları öz dilində danışmağa sanki utanır. Əsasən də gənclər, ingiliscə və rusca sözlərə üstünlük verirlər. Bəs, buna səbəb nədir? Dilimizi necə qoruyaq? Bu




gün günümüzdə mağazaların, restoranların, hətta küçələrin adları belə xarici dildədir. Buna səbəb nədir? Niyə məkanlarda yerli adlara deyil də, daha çox xarici adlara üstünlük verirlər? SİA mövzu ilə bağlı araşdırma apararaq ekspertlərin fikirlərini öyrənib.

Qeyd edək ki, araşdırma üçün İçərişəhər və Sahil metrostansiyası ətrafında olan mağaza, butik və digər obyektlərin adlarına diqqət etdik.








**Azərbaycan Dövlət Reklam Agentliyinin mətbuat katibi Hüseyn Azəri:** "Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi (ADRA) tərəfindən 2021-ci il ərzində 6000 reklamın yayımı dayandırılıb ki, bunun da 1200-ü (20%-i) Dövlət dili normalarının pozulması ilə bağlı olub. Aparılan monitorinqlərin nəticəsinə görə, demontaj olunan bu reklamların 47%-i orfoqrafik səhvlərlə bağlı, yalnız xarici dildə yazılıb, azərbaycanca qarşılığı olmayan reklamların faiz dərəcəsi 42, xarici dillərdə yazılan reklamlarda orfoqrafik səhvlərə yol verilmiş reklamlar isə 11% təşkil edib.

Açıq məkandakı reklamlarda dövlət dilinin qorunması məqsədilə Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin (ADRA) təşəbbüsü ilə Bakı Şəhər İcra Hakimiyyəti, Nəsimi adına Dilçilik İnstitutu, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi və Əqli Mülkiyyət Agentliyinin əməkdaşlarından ibarət birgə komissiya yaradılıb. Komissiyanın da təklifləri nəzərə alınaraq, ADRA tərəfindən "Dilimizə xatir dillən" kampaniyası həyata keçirilib. Bu mövzuda hazırlanan video-çarx şəhərdəki reklam qurğularında və sosial şəbəkələrdə nümayiş olunub.

Sahibkarlar arasında maarifləndirmə işləri hazırda da davam etdirilir. Qurum açıq məkandakı reklamlarda dövlət dilinin təşviqi və ondan düzgün istifadə qaydaları ilə bağlı xüsusi broşürlər hazırlayıb. Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi ilə birgə əməkdaşlıq çərçivəsində ərsəyə gələn broşürlərin Bakı ilə yanaşı regionlardakı sahibkarlara paylanılıb. Məlumat vərəqələrində "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "Reklam haqqında" qanunların müddəalarından çıxarışlar, eləcə də reklamlarda ədəbi dil normalarından istifadə üçün əyani misallar yer alıb.

Bu işdə ictimaiyyətin dəstəyinə də ehtiyacımız var. Vətəndaşlarımızdan açıq məkanda Dövlət dili normalarına uyğun olmayan reklamlara rast gəldikdə onların şəklini çəkib #ADRAgovaz, #monitorinqmerkezi heştəqləri ilə paylaşmasını, eləcə də hər iki qurumun sosial şəbəkələri vasitəsi ilə məlumat verməlırini xahiş edirik".

**Fəlsəfə üzrə fəlsəfə doktoru, sosioloq Mail Yaqub:** "Bir xalqın öz dilini sevməsi yüksək mədəniyyətdir. Maraqlıdır, Avropanın ən inkişaf etmiş iki ölkəsi - Almaniya və Fransada insanlar ingilis dilində deyil, öz dillərində danışmağa üstünlük verirlər. Özüm şəxsən buna şahid olmuşam. Buradan mühüm bir nəticə alıram: iqtisadi-texnoloji baxımdan inkişaf xalqlarda özgüvən yaradır öz dillərinə qarşı və doğma dillərini üstün tuturlar. Yadımdadır, 1998-ci ildə Fransada Futbol Çempionatında ölkələrin adları efirdə fransızca yazılırdı və bu müəyyən etirazlara səbəb olmuşdu.

Bəs biz niyə rus və ingilis dillərinə bu qədər aşiq olmuşuq? Bizdə hələ də bəzən rus dilində danışmaq yüksək mədəniyyət göstəricisidir. Halbuki, sırf dil bilmək üstünlük deyil. Belə olsaydı, həmin ölkələrdə yerli insanların hamısı rus və ingilis dilində danışdıqları üçün mədəni insanlar olardılar. Amma təbii ki, belə deyil. Onların arasında cinayətkarlar da var.

Məncə bizdə insanlarımızın bəzisində xarici dillərə aşırı sevginin kökündə məhz bu amil dayanır. Biz xarici dildən istifadə edirik ki, özümüzü mütərəqqi göstərək.

Nə etməli? İki yol var. Biri inzibati nəzarətdir. Dövlət qarşısını almalıdır. İkinci və daha mühüm: biz inkişaf etməliyik. Belə olan halda əmin olun, özgüvənimiz çoxalacaq və daha başqa dildə danışmağı özümüzə yaraşdırmayacağıq".

**Təhsil eksperti Kamran Əsədov:** "İlk növbədə qeyd edim ki, rus bölməsinə olan əgər artım tendensiyasının Azərbaycan dili bölmələrinin xeyrinə olmasını istəyiriksə, bu sferada tədrisin səviyyəsi yüksəldilməlidir.



Düzdür, indi rus dilində təhsilə dəb kimi yanaşanlar da var. Onların çoxu elə bilir ki, rus dilində oxumaqla uşaqlar öz intellektləri ilə seçiləcəklər. Ancaq bu belə deyil. Əvvəla, indi əvvəlki intellektli müəllim nəsli azalıb. Məncə uşaqların rus dilində təhsil almalarındansa, ingilis dilinə üstünlük vermələri daha məqsədəuyğundur. Rus dilini əlavə dil bilmək xətrinə öyrənmək olar. Amma ümumi tədrisi rus dilində almağa can atmaq düzgün deyil. Xüsusən əgər uşaq Azərbaycanda yaşayıb işləyəcəksə, öz dilində təhsil almalıdır. Ancaq əlavə dilləri mənimsəsə, gələcəyi üçün perspektivli olar.

Bir faktı deyim ki, hal hazırda ümumilikdə orta məktəblərin 7,6%-də təhsil rus dilindədir. 4472 orta məktəbin 340-ı rus məktəbidir. Bu məktəblərdə 90 min şagird oxuyur. Bu isə o deməkdir ki, ümumilikdə təhsil alan uşaqların 6,3%-i rus dilində oxuyur. Doğrudur, orta məktəblərdə 450 min uşağa rus dili xarici dil kimi tədris edilir. Bu isə ümumi şagirdlərin 32%-i deməkdir.

Bunlarla yanaşı Ölkə üzrə ümumtəhsil müəssisələrində təhsil alan şagirdlərin bölmələr üzrə sayı: Azərbaycan bölməsi üzrə respublika üzrə 1.428.608 nəfər şagird, rus bölməsində 131.412 nəfər, gürcü dili bölməsi üzrə 1.114 nəfər, ingilis dili bölməsi üzrə 5.457, fransız dili bölməsi üzrə 130, türk dili bölməsi üzrə isə 295 nəfər şagird təhsil alır. Ümumilikdə respublika ümumtəhsil məktəblərində 1.567.016 nəfər şagird qeydə alınmışdır. Sinif sıxlığına görə ən böyük göstərici hər sinifdə ortalama 27 şagirdlə türk dili bölməsindədir. Ölkədə şagird sayının çoxluğu müşahidə olunan azərbaycan və rus dili bölmələrində sinifdə şagird sıxlığı müvafiq olaraq 18 və 24 nəfər təşkil edir.

Rus dilində təhsilə meyli hər bir valideynin övladını layiqli mühitdə oxutdurmaq istəyi ilə əlaqəlidir.

Əgər dərsliklərin keyfiyyəti düzəlməyibsə, müəllimlərin şagirdə primitiv münasibəti qalırsa, onda valideyn uşağını hansı bölməyə versin? Valideyn elə bir mühit axtarır ki, uşağı bu cür mənfi hallarla qarşılaşmasın. Valideynlər istəmir ki, onların uşaqları keyfiyyətsiz kitablardan dərs alsın. Ruslarda həm illüstrasiya, həm də məna baxımından kitab məsələsinə daha ciddi yanaşma var. Məsələn, yaxşı yazılmayan tarix kitabını kim oxuyar? Tarix kitabı peşəkar yazılmalıdır ki, bədii ədəbiyyatdan aldığın zövqü ondan alasan. Təsadüfi insanlar, qohum-əqrəba kitab yazmamalıdır. Bu amillər tədrisin keyfiyyətinə mənfi təsir edir.

Biz Azərbaycan dilinin tədrisinin keyfiyyətini yüksəltməliyik. Həmçinin rus sektorunda Azərbaycan dilinin tədrisinə fikir verməliyik. Yəni rus bölməsində oxuyan şagirdlər də Azərbaycan dilini mükəmməl bilməlidirlər. Rus bölməsinin sayının artmasını faciəyə çevirməyə ehtiyac yoxdur.

İlk öncə öz rəyimi bildirəcəm. Son 70 ildə Rus dilinin önəmliyi olduqca yüksək idi, bu danılmazdır. Mütəxəssislərimizin bir qismi rusca daha rahatdır nəinki Azərbaycan dilində.

Təhsil sistemimizdə Rus dilinin oynadı?ı rol böyük idi. Nəyə isə nail olmaq üçün gərək rusca səlis danışasan, varlı qohumun yaxud da qabiliyyətin yoxdursa.

Hər bir insan nə qədər cox dil bilirsə bir o qədər de onun ucun yaxşıdır.O ki,qaldi rus dilinə,gəlin yaddan çixartmayaq ki,dünyanin quru erazisinin 6/1 hissəsinin insanlari bu dildə danişirlar.Bu dildə həddindən artiq informsiyalar vardir.Bir məqamə qeyd edim ki, indi tələbat ingilis dilinədir, ancaq ingilis dilində pulsuz təhsil verən məktəb olmadığı üçün rus dilində təhsil alan uşaqlar isə məktəbi bitirəndə artıq ən azı 2 dildə - Azərbaycan və rus dillərində danışa bilirlər. Amma "İngilisdilli məktəblər üçün yetərincə müəllim resursu yoxdur, bunun ənənəsi yoxdur. Amma ənənə yaradıla bilər. Çox təəssüflər olsun ki, Müstəqil ölkənin təhsili öz dilində yetərli olmadığından insanlar başqa dildə təhsilə üstünlük verirlər.Hazırda ölkəmizdə rəsmi olaraq tədris iki dildə aparılır, Azərbaycan və Rus. Bundan başqa isə Türk, Fransız dövlətlərinin dəstəyi ilə fəaliyyət göstərən bir neçə məktəb var. Amma görünən odur ki, qeyri-rəsmi də olsa ingilis dilli tədrisə ciddi maraq var və bu da özəl təhsil sektorunda özünü aydın şəkildə göstərməkdədir. Belə ki, İngilis dilində tədris də bir neçə formada həyata keçirilir, ya hansısa beynəlxalq məktəblər, ya da Azərbaycan və Rus bölməsi ilə yanaşı, İngilis dili bölməsində də tədris verən məktəblər. Rus bölməsinə münasibət birmənalı deyil, lakin buna baxmayaraq, valideynlərimiz övladlarının gələcəyini rahat etmək baxımından rus bölməsinə müraciət edir, bunu isə bəzən ödənişsiz ingilis bölməsinin olmaması ilə əlaqələndirirənlər də var. Çünki əmindirlər ki, rus dilini bilən insan üçün ən azından MBD ölkələrinə, müəyyən ədəbiyyata bu vasitə ilə daha tez çıxmaq olur ki, bu da savadlı insan kimi yetişməyin yolunu asanlaşdırmış olur. Əminik ki, rus bölməsi ilə bərabər dövlət məktəblərində ingilisdilli bölmələr olsa, rus bölməsinin reytinqi birdən-birə aşağı düşər. Lakin Rus bölmələrinin olması ideoloji baxımdan nə qədər ürəkaçan olmasa da, Rusiya kimi böyük bir dövlətin qonşusuusansa, iqtisadi əlaqələr baxımından bu dilə münasibət həmişə yaxşı olacaq. İstənilən halda, bir neçə dil bilməyin heç bir ziyanı yoxdur.Əgər övladınız rus bölməsində təhsil alırsa, bu o deməkdir ki, sonda Azərbaycan dövlətinin attestatını alacaq, həm yerli, həm də xarici universitetlərdə təhsilini davam etmə şansı olacaq. Çünki rus bölməsinin şagirdləri Azərbaycan bölməsi ilə eyni hüquqa malikdir, eyni kurikulumla təhsil alır, burada sadəcə tədris dili fərqlidir. Üstəgəl Azərbaycanda dövlət məktəblərində də rəsmi olaraq rus bölməsi var ki, bu da onların əlavə xərc çəkmədən övladlarının ikinci bir dili öyrənməsinə imkan verir. Bu baxımdan rus bölməsinin avantajı əlbəttə ki, ingilis dilindən çox görünür.

Ölkəmizdə İngilis bölmələrində isə durum fərqlidir. Bu bölmədə özəl liseylər tədrisi beynəlxalq kurikulumla keçir və sonda balabilgələrə (şagirdə) Azərbaycan attestatı verilmir. Çünki ölkəmizdə daha çox IB və Kembric proqramları ilə ingilisdilli tədris verilir ki, bu zaman Azərbaycan kurikulumu tədris edilmədiyi üçün balabilgələrin attestat imtahanına girmə şansları yoxdur. Onu da nəzərə alsaq ki, ölkəmizdə hələlik sadəcə ADA univetsiteti SAT və ya digər beynəlxalq imtahanlarla şagird qəbul edir, deməli, bu balabilgələrin digər universitetlərimizə qəbul olması mümkün deyil. Hətta şagird 9-cu sinifdə ingilis (bura digər dildəki bölmələr də daxildir: türk, alman, fransız) bölməsindən Azərbaycan bölməsinə keçid etmək istəyən zaman, bir sinif geri düşür. Əslində isə geri düşmür, çünki beynəlxalq proqramlarda təhsil 12, bizdə 11 illikdir. Ona görə də valideynlərimiz bunu geri düşmək kimi qəbul edir".

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Azərbaycan dilinin saflığının qeydinə qalmaq hər birimizin borcudur. Hamılıqla dilimizi yad təsirlərdən qorumalıyıq.

Təəssüf ki, son illər Azərbaycan dilinə maraq xeyli azalıb. Azərbaycanlılar öz doğma dilində danışmaq istəmir, ya da könülsüz danışırlar. Rus, inglis və digər xarici dillər Azərbaycan dilini üstələyir. Mən bu cür acınacaqlı vəziyyətin yaranmasına görə sıravi



vətəndaşalardan çox rəsmi şəxsləri, səlahiyyət sahiblərini qınayıram.

Məmurlarımız hər fürsəttə xarici dil bilmələri ilə öyünür. Hətta bunu, obrazlı desək adamın gözünə soxmağa çalışırlar. Mən hələ görməmişəm ki, hansısa məmur öz ana dilini mükəmməl bilməsi ilə öyünsün. Buna görə də ölkədə rus dilli məktəblərə böyük axın var. Rus dilini bilməyən vətəndaşlarımız da övladlarının bu dildə təhsil almasını istəyir. Bu adamlar düşünürlər ki, uşaqları rus dilini bilməsə, onların parlaq gələcəyi olmayacaq. Sıravi azərbaycanlılar nə qədər ki, bu mənfi tendensiyadan xilas olmayıb, ana dilimizi etinasız münasibətdən xilas edə bilməyəcəyik.

Kafe və restoranların, istirahət mərkəzlərinin, turizm obyektlərinin adlarının xarici dildə olması təəssüf doğurur. Bu cür hallar dilimizə qarşı hörmətsizlikdir. Çox yaxşı olardı ki, mağazalar, restoranlar, turizm mərkəzləri milli-tarixi adlardan istifadə etsin. Niyə hansısa istirahət mərkəzinin adı "Əlincə" deyil "Le Chetau" olmalıdır? Bu cür məsələlərdə həssas davranmaq lazımdır".

***Ayşən Vəli***

# "İt gəzdirən qadın"la əlaqəsi olmayan gəzinti...

**...Budur, Rusiya prezidenti Vladimir Putin Ermənistanın baş naziri Nikol Paşinyanı yanına salıb, Vladivostokda Şərq İqtisadi Forumuna aparacağı bir məqamda, erməni nazir ...böyük bir siyasi səhvə yol verib. Belə ki, Elizabet Trassın Rusiyanın "əsas düşmənlərdən" biri olduğunu bilə-bilə, götürüb onu Böyük Britaniyanın baş naziri seçilməsi münasibətilə təbrik edib.**

## ...Yaxşı, indi belələrinə nə deyəsən?

Hələ bir utanmaz-utanmaz durub ruslardan, onların 45 günlük müharibədə gəlib ermənilərin yerinə döyüşməməsindən inciyirlər də. Məgər Paşinyan bilmir ki, onun təbrik etdiyi bu qadın, elə bu ilin əvvəlində Rusiya Federasiyasının Voronej və Rostov vilayətləri üzərindəki suverenliyini tanımaqdan imtina edib.

Deyim ki, inanmıram. Paşinyan isə Trassa ünvanladığı təbrikdə, onun rəhbərliyi altında "qlobal çağırışların aradan qaldırılmasına mühüm töhfə verəcəyinə" əmin olduğunu bildirib. Yaxşı bütün bunlar bir yana, axı Nikol ingilis qadının nöqteyi-nəzərindən Rusiyanın bir nömrəli qlobal çağırış olduğunu bilməliydi axı... Yəni deyirsiniz, bunu da bilmir. Maraqlıdır, görən, bununla Nikol qərbdəkilərin yanında özünü "şirin salıb" Kremldən uzaqlaşmaqmı istəyir?



Hay, uzaqlaşa bildin, hay... Niyə sualını vermə, özüm xırdalayacam.

Birincisi ona görə ki,..elə Rusiya səni... yox ey, Ermənistanı heç yerə buraxmayacaq. Moskvanın Bakıya o qədər yaxınlaşmasından və onunla Müttəfiqlərin Əməkdaşlıq Bəyannaməsi imzalamasından belə nəticə çıxmır ki, Kreml İrəvandan əlini çəkəcək.

Yox, ona görə ki, Ermənistanda Rusiya hərbi bazası var, onun Türkiyə və İranla sərhədləri rusların özləri tərəfindən qorunur, dəmir yolları Rusiya Dəmir Yollarının konsessiyasındadır, Ermənistan ərazisindəki bir çox, bəlkə də ermənilərinkindən də çox müəssisə Rusiya Federasiyasının mülkiyyətindədir.

## Hə, deyəsən, Ermənistanın iki qulağından başqa heç nə qalmadı axı...

Təbii ki, Rusiya bütün bunları itirmək fikrində deyil və ona görə də, Ermənistanı öz geosiyasi orbitində saxlamağın yolunu mütləq tapacaq. Əslində isə "həmən yol" ruslar üçün heç vaxt itirilməyib.

...Amma nə bilmək olar, bəlkə də Putinin Nikolu yanına salıb İrəvandan 7 min kilometr uzağa aparması da həmən bu "geosiyasi orbitin" yollarından biridir?

...Yox-yox,.. amma ümidvaram ki, Nikol Putinin onun üçün təşkil etdiyi bu gəzintini Anton Pavloviç Çexovun "it gəzdirən qadın" əsəri ilə qarışıq salmamalıdır.

***Ağasəf Babayev***

# "Azərbaycan hər zaman təxribatların cavabını verir"

SİA Politoloq Amid Əliyevin müsahibəsini təqdim edir.



***- Ötən həftə Brüsseldə keçirilən növbəti üçtərəfli görüşdən gözləntilər çox idi. Görüşdə proseslərin tezləşməsi ilə bağlı fikirlər var idi. Görüş hansı məqamlarla yadda qaldı və bundan sonrakı proseslərə təsir edəcəkmi?***

- İkinci Qarabağ savaşında Azərbaycan qələbə əldə etdikdən sonra regionda yeni siyasi konfiqurasiya, konturları çızılmış yeni reallıq yarandı və Avropa İttifaqı fəal iştirak etmək üçün vasitəçilik missiyasını öz üzərinə götürdü. 2021-ci ildə Avropa İttifaqının vasitəçiliyi ilə ilk görüşlər başladı. Axırıncı görüş sayca 4-cü görüş idi. Görüşün keçirilməsi vacib idi. Çünki digər üç görüşdə Ermənistan öz üzərinə götürdükləri öhdəlikləri yerinə yetirmədi. İstər Avropa İttifaqı istər Moskvanın vasitəçiliyi ilə keçirilən görüşlərdə verilən bəyanatların icrasında Ermənistan tərəfindən real adımlar atılmır. Sonununcu görüşdən sonra cəbhədə yenidən təxribatlar baş verdi. Azərbaycan tərəfindən "Qisas" əməliyyatı keçirildi. Məhz 4-cü görüşün keçirilməsinə əsas səbəb bu idi. 10 noyabr bəyanatının 4 bəndi bugun icra edilməmiş vəziyyətdə qalır. Bürüssel görüşünü və "Qisas" əməliyyatını mühüm edən odur ki, Ermənistanı bu maddələrin həyata keçirməsinə təhrik etmək. Görüş hər dəfə olduğu kimi Azərbaycanın xeyrinə və Azərbaycanın diplomatik qələbəsi kimi qiymətləndirilməlidir. Şarl Mişelin bəyanatında açıq görürük ki, sərəhdlərin delitimasiya və demarkasiyası, humanitar məsələlər, itkin düşmüş şəxslərin talehi haqqında məlumatların təqdim edilməsi, yaxın günlərdə sərəhədlər haqqında yeni komisiya işçi qrupunun fəaliyyətə başlaması, sülh sazişinin mətnlərin işlənməsi hər iki ölkənin xarici işlər nazirliyinə tapşırıldı. Azərbaycan dövləti və Azərbaycan diplomatiyası və ölkə başçısının yeni siyasi məharəti Avropada nümayiş olundu. Proseslərə Azərbaycanın nöqtə qoyulmasının şahidi olacağıq.

***- Brüssel görüşlərindən sonra Ermənistan tərəfinin təxribatlarının şahidi olduq. Görüşdən sonra Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın Xankəndiyə səfəri və bu kimi təxribatçı əməllərin arxasındakı məqsəd nədir?***

- Çox zaman Ermənistan tərəfindən belə təxribatlar mühüm görüşlərdən sonra baş verir. Brüssel görüşündən dərhal sonra bölgədə sülhün zəmanətçisi rolunda çıxış edən Rusiya xarici işlər nazirinin sözcüsü Mariya Zaxarova açıq şəkildə bəyan etdi ki, Avropa İttifaqının Qafqazdakı aktivliyi siyasi ambisiyalardan irəli gəlir. Yəni bu, Ermənistan və Azərbaycan arazındakı razılığın əldə edilməsinə hesablanmayıb. Eyni şəkildə gördük ki, Ermənistanın keçmiş prezidenti Robert Köçəryanı ad günü münasibətilə Rusiya prezidenti şəxsən təbrik etdi. Ermənistan KİV-də daha çox bunu tirajlanmağa başladı. Eyni zamanda Moskvada yaşayan erməni milyarderi Vardaryan sanki Azərbaycana bildirdi ki, mən Rusiya vətəndaşlığından çıxıram, Azərbaycan vətəndaşlığını qəbul edirəm. Xankəndidə yaşamaq istəyirəm. Həmin Vardaryan ki, Azərbaycana qarşı Rusiyada illərdir mübarizə aparır və "Qara piyar"ın həyata keçirilməsində əlindən gələni edirdi. Bu təxribatlar davam edəcək. Azərbaycan güclü dövlətdir. Belə təxribatların qarşısı alınır. Hər təxribatın cavabını Azərbaycan verir və Azərbaycan yeni uğurlar qazanır. İstər hərbi sahədə olsun, istər diplomatik sahədə. Belə təxribatların davam etməsi ən çox Ermənistanın siyasi rəhbərliyinə və sadə erməni xalqına ziyan gətirir.

***- Nəyə görə Rusiya bölgədə sülhün zəmanətçisi rolunda çıxış etdiyi halda bu məsələ Brüsseldə həll olunur?***

- Bu sualı Moskva özünədə axtarmalıdır. Çox güman ki, Rusiyanın özündə bu məsələnin həll olunması, Ermənistan və Azərbaycan arasında reinteqrasiyanın olması, yekun sülh sazişinin bağlanmasına qarşı olan qüvvələr var. Məsələni uzatmaqda maraqlı olan Rusiyanın daxilində siyasi qüvvələr mövcuddur. Onlar prosesi geçikdirməkdə maraqlıdırlar. Lakin bu cəhdlər özünü doğrultmayacaq. Azərbaycan diplomatiyası bölgədə real konkret şərtlərə uyğun olaraq kontorları müəyyən edir. Buna cavab olaraq Ermənistan dövləti və cəmiyyəti konstruktiv müstəvidə dialoqları davam etməyə hazır olsa, Azərbaycanda bunu davam etdirəcək. Əks təqdirdə təxribatlara əl atsalar,Azərbaycan qarşıda duran məsələləri təkbaşına həll edəcəkdir.

***- Ermənistanda etiraz aksiyaları başlanıb. Xankəndində də paralel olaraq aksiyalar davam edir. Bu Paşinyanın istefası ilə nəticələnə bilərmi?***

- Maraqlısı budur ki, əldə edilən uğuru oyuncaq "Qarabağ hökuməti" öz adına yazır. Lakin aksiyalar başlayanda həm Qarabağdakı ermənilər, həm də İrəvandakı ermənilər birgə başlayır. Biz bu inqilabların nəcə nəticələnməsindən xəbərdarıq. Ermənistanda daxili siyasi prosesləri çızan və yazan Ermənistan dövlətinin özü deyil. Ermənistandakı siyasi proseslər kənardan idarə edilir. Mən bəyaqda vurğuladım ki, hər yeni görüşdən sonra yeni təxribatlar baş verir. İstər Ermənistanın öz daxili proseslərində, istər də Azərbaycana qarşı olan təxribatları görürük. Ermənistan cəmiyyəti bilir ki, bütün siyasi kartlar uduzulub, siyasi müstəvidə geridə qalıb. Ermənistanın çıxış yolu Azərbaycanla əlaqələri bərpa etməkdədir. Ermənistan hökuməti məğlub olduğu üçün sadə erməni xalqı Ermənistanın siyasi rəhbərliyi qarşısında çıxış edərək istefa istəklərini bildirirlər.

***- Rusiya və Ukrayna müharibəsi davam edir. Real vəziyyət hazırda necədir?***

- Çox təəssüflər olsun ki, hər iki ölkədə həm canlı qüvvələrdə həm də texnikalarda böyük itkilər var. Bu müharibənin ağır nəticələri müddət keçdikcə regionlar üzrə hiss edilməyə başlayır. Həm Rusiya həm də Ukrayna dünya üçün ən böyük taxıl ixracatçıları idi. Dünyanın bəzi regionları Cənub-Şərqi Asiya, Afrika və Avropanın bir qismi taxıl ehtiyyatının azalmasından əziyyət çəkirdi. Məhz BMT-nin və Türkiyənin vasitəçiliyi ilə taxıl dəhlizi yaradıldı və taxıl istehlakçılara çatdırıldı. Günbəgün müharibənin ağır nəticələrini görürük. Dünyanın beyin mərkəzlərinin stateji araşdırmalarına görə müharibənin davam etməsi 2023-cü ili bundan da çətin və ağır keçməsinə səbəb olacaq. Hər iki tərəf sona qədər vuruşacaq. Lakin heç bir tərəf öz peşmançılığını bildirməyəcək. Bəzi KİV-də belə məlumatlar yayılıb ki, Rusiya artıq İkinci dünya müharibəsindən qalan hərbi texnikalarını istifadə edir. Lakin Ukraynanın arxasında kollektiv Qərbin olduğunu nəzərə alsaq, müasir hərbi-siyasi potensiyaldan istifadə olunur. Belə olduğu halda Rusiya öz məğlubiyyəti ilə barışmayacaq.

***Qönçə Quliyeva***

# "Azərbaycanın yaratdığı geostrateji reallıqlar diqqət mərkəzindədir"



"Bu gün Azərbaycan dünya miqyasında yüksək nüfuza malik olan bir ölkədir. Aparılan uğurlu xarici siyasət nəticəsində ölkəmizin dünya dövlətləri ilə əlaqələri gündən-günə genişlənir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Onun sözlərinə görə, regionun aparıcı dövləti olan Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarla hərtərəfli münasibətlərin inkişaf etdirilməsinə də xüsusi önəm verir: "Ölkəmiz praqmatik xarici siyasət nəticəsində Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu orqanı - Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olub. Bu da Azərbaycanın milli maraqlarının beynəlxalq arenada layiqincə təmsil edilməsinə tarixi şərait yaradıb. Belə ki, Azərbaycan 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə 2012-2013-cü illər üçün keçirilən seçkilərdə qələbə üçün tələb olunan 129 səsdən də çox - 155 səs əldə edib və Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə olub. Ölkəmiz, həmçinin ötən illərdə beynəlxalq güclərin diqqətini Qarabağ münaqişəsinə və onun beynəlxalq hüququn ümumtanınmış norma və prinsipləri çərçivəsində ədalətli həlli məsələsinə çəkməyə çalışıb. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar Təhlükəsizlik Şurasının qəbul olunmuş 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilib, işğalçı qüvvələrin zəbt olunmuş ərazilərimizdən dərhal çıxarılması tələb edilib. Dünyada ilk dəfə olaraq Azərbaycan BMT-nin təcavüzkar ölkəyə qarşı qəbul etdiyi, amma ikili standartlara görə icra olunmayan qətnamələrin icrasını 2020-ci ildə baş vermiş 44 günlük müharibədə qələbə qazanmaqla təmin etdi. Azərbaycan Vətən müharibəsində qələbə qazanmaqla Cənubi Qafqaz regionunu sülh, sabitlik və əməkdaşlıq məkanına çevirmək istiqamətində həlledici addım atdı. Müharibədən sonra Azərbaycan bölgədə yeni reallıqlar yaratdı. Azərbaycan sülh müqaviləsinin imzalanması, kommunikasiyaların bərpası, Türkiyə ilə ortaq təşəbbüs əsasında "3+3" formatında yeni əməkdaşlıq platformasının yaradılması kimi istiqamətlərdə strateji fəallıq nümayiş etdirməklə regionda yeni düzən formalaşdırır. Bu geosiyasi fəaliyyət Cənubi Qafqazla məhdudlaşmır, bir çox dövlətlərin, o cümlədən güc mərkəzlərinin strateji maraqlarının olduğu regionları əhatə edir.

Sevinc Fətəliyeva qeyd edib ki, Azərbaycanın Avropa Şurası, ATƏT, Müstəqil Dövlətlər Birliyi, İslam Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, digər beynəlxalq təşkilatlarla fəal əlaqələri var və bu münasibətlər davam edir. 2011-ci ildə isə ölkəmiz Qoşulmama Hərəkatına üzv olub. Onun fikrincə, Qoşulmama Hərəkatının tarixinin ən parlaq dövrünü Azərbaycan Prezidenti İlham Əliyevin təşkilata rəhbərlik etdiyi zamanda yaşadığını, desək, yanılmarıq: "Dünyanın COVID-19 pandemiyası ilə üzləşdiyi günlərdə dövlətimiz böhranın aradan qaldırılması məqsədilə ədalətli münasibət, bərabər paylaşım adı ilə müxtəlif tədbirlər keçirdi və təkliflər irəli sürdü ki, bunlar da təşkilat üzvləri və digər beynəlxalq təşkilatlar tərəfindən yekdilliklə qəbul olundu. Azərbaycan tərəfindən Qoşulmama Hərəkatının adından irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı 2021-ci il dekabrın 16-da BMT-nin Baş Assambleyasında qətnamə qəbul edildi. Pandemiyaya qarşı mübarizədə Azərbaycan nümunəsi hər kəsə örnək kimi göstərilir. Bu müstəvidə Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində COVID-19 pandemiyasına qarşı mübarizə naminə beynəlxalq səylərin səfərbər edilməsi sahəsində qlobal liderliyini davam etdirir. Hərəkata sədrliyi dövründə Azərbaycanın Qoşulmama Hərəkatı üçün müfəssəl və iddialı qlobal fəaliyyət planı hazırlaması, COVID-19 pandemiyasının dünyanı bürüməsi, Azərbaycanın yeni vəziyyətə çevik və adekvat reaksiyası, pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi istiqamətində irəli sürdüyü beynəlxalq təşəbbüslər Prezident İlham Əliyevin dövlətimizin nüfuzunun yüksəlməsi istiqamətində uğurları kimi səciyyələndirilir. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin daha bir il müddətə - 2023-cü ilə qədər uzadılması rəsmi Bakının qlobal çağırışlara münasibətdə daha fəal rol oynamasına gətirib çıxaracaq".

"Beləliklə, Prezident İlham Əliyevin milli maraqlara və müasir çağırışlara uyğun xarici siyasət kursu Azərbaycanın beynəlxalq münasibətlər sistemində nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. "Ötən illərin siyasi-diplomatik mənzərəsini əks etdirən reallıqlar və hazırkı geosiyasi situasiya da onu göstərir ki, dünyanın nəzəri Azərbaycanda və regiondadır. Çünki Azərbaycanın yaratdığı geostrateji reallıqlar beynəlxalq ictimaiyyətin xüsusi diqqət mərkəzindədir. Bu isə Prezident İlham Əliyevin regionun yeni geosiyasi mənzərəsini müəyyən etdiyini göstərir" - deyə millət vəkili vurğulayıb.

***Arzu Qurbanlı***

# "Ermənistan öz terrorçu mahiyyətinə sadiqlik nümayiş etdirir"

"Ermənistan tərəfi yenə də öz ideyasından əl çəkmək niyyətində deyil. Ermənistanın həyata keçirdiyi mina terroruna beynəlxalq təşkilatların, dünyanın aparıcı dövlətlərinin səssiz qalması başadüşülən deyil və birmənalı şəkildə qəbuledilməzdir". Bu fikirləri SİA-ya açıqlamasında hərbi-siyasi ekspert, polkovnik Cəlil Xəlilov bildirib.




Onun sözlərinə görə, dəfələrlə beynəlxalq səviyyədə aparılan danışlarda Ermənistana xəbərdarlıq edilib ki, Azərbaycan ərazilərində olan minaların xəritələrini versinlər: "Onların verdiyi mina xəritələrinin demək olar ki, hamısı yanlışdır. Ermənilər mina xəritələrini verməməkdə israr edirlər. İşğaldan azad olunmuş ərazilərdə minaların basdırılması vətəndaşların öz vətənlərinə qayıtmasına əngəldir. İşğaldan azad olunmuş ərazilərimizdə yaşayan erməni vətəndaşları oradan köçmək üçün vaxt istəyiblər. Amma Ermənistan tərəfi bu imkandan da məkrli məqsədlə istifadə etdi. Onlar həmin müddətdə torpaqlarımıza çoxlu sayda yeni minalar basdırdılar. Hansı ki, ermənilərin vaxti ilə işğal altında saxladığı ərazilərdə basdırdıqları minaların sayının yüz minlərlə olduğu güman edilir. Bu minalar həm hərbçilərimiz, həm də mülki vətəndaşlarımız üçün ciddi təhlükə mənbəyi olaraq qalmaqdadır. Azərbaycan dövləti həmin minaların yerinin müəyyənləşdirilməsi və zərərsizləşdirilməsi istiqamətində mühüm addımlar atsa da, işin miqyası olduqca böyükdür və xeyli vaxt tələb edir. Daha pisi isə bundan ibarətdir ki, Ermənistan öz terrorçu mahiyyətinə sadiqlik nümayiş etdirir və zaman-zaman yeni-yeni təxribatlara əl atır. Bu isə onu göstərir ki, Ermənistan bütün region üçün ciddi təhlükə mənbəyi olaraq qalmaqdadır və bu təhdidin aradan qaldırılması üçün beynəlxalq ictimaiyyət, dünya və region dövlətləri Azərbaycana ciddi dəstək verməlidir",

***Abutel İlhamqızı***

BAXIŞ BUCAĞI




# Torpaq - zəhmətin əlifbası

**Bu günlər yay hələ də havanın sərinləşməsinə təslim olmayan şux qaməti, yaşıl rəngi ilə gəlişinə sayılı günlər qalan payızın pışvazına çıxıb, ona meydan oxumaq istəyir. Lakin istəsə də, istəməsə də onu qarşılamaq, təslim olmaq məcburiyyətindədir. İlin bu vaxtında-ağacların ağırlıqdan əyilib çəməni oxşayan budaqlarının çeşidli bol meyvəsi, bağrını yarıb zər axtaran insanlara torpağın yığmaqla bitməyən məhsul ərməğanı yenə də zaman-zaman zəhmətin yaratdığı torpağın əlifbasını yada salır, dərələrin, düzlərin, çöllərin əlifbasından söhbət açır**

"A" ilə - ata ilə, ana ilə başlayan əlifbamızın sıralanmasında nə əvvəldə, nə də sonda yox, ortalarda ilk səslənmədə gözlərimiz önünə torpağı gətirən bir hərfimiz də var - "T". Sanki tən ortada dayanmaqla torpaq mənzilli insanların dünyaya gələninə də, gedəninə də sevgi paylayan bu hərf yaranışından insanları özünə sevdalı edib. Üzərində dünyaya gəlib, qoynunda uyuduğumuz, ata-babalarımızdan alın təri alıb qara rəngini gözoxşayan, könül bəzəyən min bir çalara çevirən torpaq. Zaman-zaman qara günün ağ rəngi olan torpaq. Ucsuz-bucaqsız dünyanı üzərində qurub yaradan, evsizi evli, çörəksizi çörəkli, işsizi işli edən torpaq.

Torpaq nəyi sevir? İnsanları, onların əllərini, nəfəsini. Sükutu yox, səsi-küyü sevir. Sinəsinə şumun, kotanın, traktorların, kombaynların sığal çəkməsini, "əzilməsini" sevir ki, onu əzəni əzizləsin. Zəhmətini çəkənin mükafatını versin. Elə ona görə də hər zaman zəhmətin əlifbası olub torpaq. Bu əlifbanı barmaqları ələktək torpağı ələyən əllər sıralayıb. O əlifbanı hər bir kəndli atanın yanındakı cütçü qardaşına-balaca oğluna torpağı çölbəçöl, dərəbədərə, çayları bəndbənd, bərə-bərə, çiyni ot şələli, odun şələli, uçurumu, yoxuşu, aşırımda tufanı, gədikdə qarı, selabda yağışı oxutduran zəhmətkeş insanların simasında böyük şairimiz Məmməd Araz hərf-hərf qələmə alıb. Şair hər birimizin atasının kitabı olan poemada bir xalqın torpaq sevgisini cahana bəyan edib, böyük bir elin ağsaqqal, zəhmətkeş və nəsihətkeşlərinin ümumi obrazını atası ilə "Atamın kitabı"nda sətirləyib.



Bu əlifba məktəbdə say çöpləri ilə hesablamaqla başlayıb "A" dan "Z"yə hərfləri bir-bir öyrəndiyimiz əlifbaya çox bənzəyir. Lakin bu əlifba yayın-yazın günəşində, payızın yağışında-sazağında zəhmət zindanında döyüb bərkidəndən sonra "məktəbə" göndərir ataların övladlarını. Zəhmətin əlifbasında say çöpləri ilə saymaq külüng, baltadır. Qolunu çırmayıb döşdəki yemişan kolunu boğazlayan, sonra da on dənə düyünsüz çubuğu, beş cüt də samlığı ütməyi bacaran hərfləri öyrənməyə başlaya bilər. Bu əlifbanın "A"sı at, "B"si bal, baldırğan, "D"si dəryaz, "O"su oraq, "C"si cütdür. Müasir dövrümüzdə atı avtomobillər, dəryazı, orağı, cütü traktor, kombayn, otbiçən, taxılbiçən maşınlar əvəz etsə də, insanlar yenə də həmin insanlardır. Bu gözəl ölkəmizin nəfis bar-bərəkətinin, bazarlarımızın bolluğu, süfrələrimizin yaraşığı olan nemətlərinin arxasında aylarla qızmar günəşin altında çöhrəsi mis rənginə çalan, alın tərini yağış, arx sularına qatıb torpağa hopduran, yazın-payızın sazağının əllərinə "dırmıq çəkdiyi" insanların zəhməti dayanır. Bu insanlar zəhmətin əlifbasını sıralayan o dağ qürurlu, barmaqları qabar-qabar, ovucları cadar-cadar olan ataların övladlarıdır. O atalar övladlarına çölün əlifbasını öyrətdikdən sonra onları gözlərində sevinc yaşları ilə məktəbə yola salanda deyirdilər:

Dedi: gəl öpüşək, a cütçü qardaş
Daha düş-söylədi-boyunduruqdan!
Dedi: çıxma sözdən,
Çıxma buyruqdan!
Məktəbə gedirsən,
Get, işıq oğlum!
Sabir baban demiş:
yaraşıq oğlum!

Zəhmətin əlifbası ilə qanına, ruhuna sulardan saflıq, təbiətdən halallıq, dağlardan əzm hopan oğullarınsa heç çölçü ayaqları düşməzdi heydən:

O gündən balaca qırmızı heybəm
Bir gözündə kitab, birində çörək
Çiynimdən düşmədi yollandım çölə, -

deyərək, torpaqla məktəb-elm, ziyalılıq sevgisini paylaşdılar.

İllər ötür, lakin ilk əlifbamız zəhmətin əlifbası olaraq qalır. Bu əlifbanı öyrənə bilməyən zəhmətlə ucala, öz mövqeyinə çata bilmədi. Öyrənənlərsə müəllim, həkim, mühəndis, alim də oldular. Övladlarına torpağın əlifbası ilə yanaşı, dilini də öyrətdilər. Beləcə, torpaq sevgisi dünəndən bu günə gəlib çıxa bildi. 70 illik sovet rejiminin kəndlinin əlindən torpaqlarını alıb kolxoz-sovxozlara verdiyi dövrdə torpaqsız yaşaya bilməyən insanlar onu başqaları üçün əkib-becərməyə belə, razı oldular. "Ta ki torpaq olsun, ta ki ondan ayrı qalmayaq", - dedilər. Zəhmətin bəhrəsinin çoxu özlərinə qalmasa da, mənəvi cəhətdən qazancları böyük oldu o insanların. Bu qazanc torpaqdan ayrı düşməmək, ona bağlılıq idi. Həmin bağlılıq ümummilli liderimizin həyata keçirdiyi islahatla torpaqları özlərinə qaytarılan insanların, həqiqətən də, bu ata-baba ərməğanına münasibətlərində özünü göstərdi. Müstəqillik illərində zəhmət adamlarına göstərilən qayğı isə onları qırılmaz tellərlə bir daha torpağa bağladı. Subsidiyaların verilməsi, torpaqların vergidən azad olunması, kənd təsərrüfatı məhsullarının sərbəst satışı üçün şəraitin yaradılması, güzəştli şərtlərlə kreditlərin və texnikaların verilməsi, aqrolizinq xidməti göstərilməsi, kənd təsərrüfatı məhsullarının satışının təşkili və sərbəst ixracı onları torpaq mülkiyyətçisinə çevirdi. Bütün bunlar isə illərdir, ölkəmizdə aqrar sahənin inkişafına səbəb olub. Artıq torpaq mülkiyyətçiləri fermer, ailə təsərrüfatları yaradır, zəhmətləri ilə torpağın ən gözəl gəlir mənbəyi olduğunu sübut edirlər. Bazarlarımıza çıxarılan, festivallarda nümayiş olunan, satılan keyfiyyətli yerli məhsullar zəhmətin əlifbasını ata-babalarından əxz edənlərin zəhmət zəfəridir.



50, 100 il bundan sonra da nə qədər ki yenə də ata-babalar övladlarına heybəsinin bir gözündə kitab, birində çörək çölə gəlməyi, onlara köməyi təlqin edəcəklərsə, zəhmətin yaratdığı bu əlifba əmək adamlarının hayına-harayına gələcək. Çünki zəhmətin əlifbası torpağa çağırışdır. Yaxşı dolanışığa, əməklə, zəhmətlə ucalığa çağırışdır.

Xüsusilə də dünyada qlobal qıtlığın hökm sürdüyü indiki dövrdə torpaqdan bərkbərk yapışmaqla, onu əzib-əzizləməklə bu problemin qarşısını müəyyən qədər almaq olar. Axı xalqımızın qədim əkinçilik mədəniyyəti mövcuddur. Elə bu mədəniyyət də zəhmətin əlifbasını yaradıb. Bu əlifbadan hər gün bir hərf öyrənməklə bolluğu necə yaratmağın sirlərini də mənimsəmək olar. Bu sirrin çözülməsi isə bol taxıl, meyvə-tərəvəz-bolluq deməkdir

**Mətanət MƏMMƏDOVA**

ANALİTİK+AKTUAL

# Erməninin sonrakı ağlı..?

*"Armenianreport"un siyasi yazarından çoxsaylı etiraflar*

**Ermənilərin sonrakı ağılları işə düşüb və artıq onların əksər çoxluğunun düşdükləri acı, ağır və çıxılmaz vəziyyətlərindəki günahkarların məhz özlərinin olduqlarını etiraf etmələri hallarına da son vaxtlar tez-tez rast gəlməkdəyik. Bu xüsusda, Ermənistanın aparıcı saytlarından olan "Armenianreport"un siyasi yazarı Romella Mnatsakanyanın "Ermənistanın itkilərini necə minimallaşdırmaq?" sərlöhvəli şərhindəki fikirləri də məhz sözügedən fakta bağlaya bilərik.**

Erməni siyasi yazarı məqaləsində bildirir ki, Azərbaycan artıq çoxdandır əhəmiyyətli Qərb partnyoru ilə öz yerini möhkəmləndirib, lakin Ermənistan və Rusiya (Rusiyanın buraya hansı aidiyyatının olduğu anlaşılmazdır-R.R.) həmin məqamı buraxıb.

Romella Mnatsakanyan mövzuya idmançı baxışından da yanaşıb və qeyd edib ki, istənilən idmançı rəqibinin gücünü doğru qiymətləndirə bilməyəndə nə qədər böyük səhvə yol verdiyini təsdiq edə bilər. SİTAT: "Böyük siyasətdə də işlər məhz bu cürdür. Təəssüf ki, görünür biz Azərbaycana doğru qiymət verə bilməmişik..."

"Proses Azərbaycanın ssenarisi əsasında gedir"

Siyasi analitik paralel olaraq Brüssel görüşlərini də mövzuya daxil edib və yazır: "Gəlin Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan Prezidenti İlham Əliyevlə sayca dördüncü Brüssel görüşünü qiymətləndirək. Əgər qısa desək, biz rəsmi Bakının növbəti dəfə öz maraqlarını təmin etdiyini görə bilərik. Əgər baş verənləri sülh prosesi kimi adlandırsaq, həmin proses Azərbaycanın ssenarisi əsasında gedir".

Romella Mnatsakanyan bu məsələdə bir neçə məqamları önə sürüb. SİTAT: "Əgər əvvəllər "Dağlıq Qarabağ" termininden istifadə edilirdisə və həmin termin subyektliyi ifadə edirdisə, eləcə də "Qarabağın erməni əhalisi" haqqında və onların təhlükəsizlik zəmanətlərindən danışılırdısa, indi bu yoxdur. Hə, bütün bunları bizim hakimiyyətin axmaqlığı və satqınçılığı üzərinə yıxmaq üçün böyük istək var. Lakin bu, manipulyativ mövqe olacaq və həqiqəti əks etdirməyəcək".

Erməni siyasi yazarı bir tərəfdən əvvəlki iqtidarların səhvlərini sadalayır, digər tərəfdən özü ciddi səhvə yol verir və unudur ki, "artsax" deyilən kvazidövlət yoxdur, olmayıb, heç bir halda tanınmayıb və bundan sonra da mövcud olmayacaq!

Onun qeydlərinə görə, həqiqət bundan ibarətdir ki, Ermənistan gücdən düşməyib, Azərbaycan güclənib: "Levon Ter-Petrosyan istisna olaraq bütün prezidentlərin və baş nazirlərin səhvləri ondan ibarət olub ki, onlar baş verəcək prosesləri əvvəlcədən görə və adekvat tədbirlər tətbiq edə bilməyiblər. Onların hamısı Belə bir uzaqgörənliyin olmaması kifayət qədər ağır nəticələrə gətirib-çıxardı, amansız oldu".

Mnatsakanyan əlavə edir ki, nəticədə "artsaxın" 80%-i "itirildi" (?!-R.R.). Halbuki erməni işğalçılıq düşüncəsinə aid olan bu fikir də bütövlükdə erməni cəmiyyətini məhvə doğru sürükləyir və maraqlıdır ki, adıçəkilən erməni siyasi yazarı bir tərəfdən əvvəlki iqtidarların səhvlərini sadalayır, digər tərəfdən özü ciddi səhvə yol verir və unudur ki, "artsax" deyilən kvazidövlət yoxdur, olmayıb, heç bir halda tanınmayıb və bundan sonra da mövcud olmayacaq. Yəni qısacası, Qarabağ Azərbaycandır!

Beləliklə, hətta Ermənistanın da tanımağa cürət etmədiyi "artsaxın" dünya üçün əhəmiyyətsizliyə çevrildiyini yazan analitik onu da qeyd edib ki, dünya Azərbaycanın gündəmi ilə barışıb, yəni Bakının diktəsi birmənalı olaraq qəbul edilməkdədir.



Maraqlıdır ki, Romella Mnatsakanyan nədənsə erməni məsələsinin gözünə Rusiyanı da qatıb və iddia edib ki, yalnız Ermənistan baş verənlərlə barışmayıb, eləcə də Rusiya son 200 ildə Qafqazda məğlub duruma düşüb. "İndi burada hər şeyi Türkiyə-Azərbaycan tandemi həll edir", deyə "Armenianreport"un siyasi şərhçisi bildirib. Həmçinin əlavə edib ki, həmin tandem Qarabağda hərbi əməliyyatların başlamasına və Rusiyanın tarixi və strateji müttəfiqinin məğlub olmasına gətirib-çıxardı.

Təbii ki, Mnatsakanyan Zəfər paradında məhv edilmiş Rusiya istehsallı erməni hərbi-zirehli texnikalarının da keçirildiyini xatırladıb və qənimətləri bütün dünyanın gördüyünü yazıb: "Və Rusiya buna qarşı müqavimət göstərə bilmədi. İndi isə o daha da zəifləyib və Ukrayna bataqlığında batmaqdadır".

"Azərbaycan Prezidentini əsas qonaq kimi Foruma dəvət edən İtaliyanın prezidenti Serdco Matarella və nazirlər Şurasının sədri Mario Draqidir, bu, mühüm əlavədir ki, baş verənləri daha aydın anlayasan..."

Bu arada, Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya səfərinə, eləcə də Çernobbiodakı Forumda irəli sürdüyü bir sıra əhəmiyyətli fikirlərinə də toxunan erməni yazarı etiraf və təsdiq edib ki, bəli, dünya daha heç vaxt fevral ayına qədərki kimi olmayacaq. SİTAT: "Azərbaycan Prezidentini əsas qonaq kimi Foruma dəvət edən İtaliyanın prezidenti Serdco Matarella və nazirlər Şurasının sədri Mario Draqidir, bu, mühüm əlavədir ki, baş verənləri daha aydın anlayasan..."

Söz yox ki, araqarışdırıcılıq missiyasını da üzərinə götürdüyünü yazdığı məqaləsi ilə istifadə edən erməni siyasi yazarı bu məsələdə necə deyərlər, Rusiya ilə Azərbaycanın arasında öz təbirincə pəl vurmağa cəhd edib. Məsələn, yazıb ki, Azərbaycan Rusiya Federasiyasını Avropanın təbii qaz bazarlarından sıxışdırıb-çıxarır və s...

Halbuki, Azərbaycan Prezidenti açıq şəkildə bəyan etdi ki, Azərbaycan Rusiya ilə rəqabətə girmək fikrində deyil və qəbul edilən qərarlar da Rusiya qarşı istifadə olunmur. Və görünür, erməni yazarı həmin iddialarını irəli sürərkən unudur ki, Rusiya yalnız Ermənistanın müttəfiqi deyil, habelə Azərbaycanla da müttəfiqlik sazişinə malikdir!

Nəticə olaraq Romella Mnatsakanyanın fikirlərindən belə bir nəticə hasil etmək olar - o bir tərəfdən Ermənistanın səhvlərini etiraf edir və hazırkı dövrə qədər sürülən siyasətlərin ölkəni uçuruma sürüklədiyini bildirir, digər tərəfdən Azərbaycanın gücünü etiraf etməklə Rusiya ilə münasibətlərinə xələl vurmağa yönələn fikirlərini ifadə edir. Düzdür, Rusiyada bu kimi çığırbağır salan isterik yazarlara elə də ciddi əhəmiyyət verilmir, amma biz də etiraf edək ki, faktiki olaraq Romella Mnatsakanyan qarşıda Ermənistanı daha ağır bəlalar gözləyəcəyi proqnozunu irəli sürür. Misal üçün, məqaləsinin sonunda bildirir ki, yeni reallıqları qiymətləndirərkən qarşıdan gələn bəlaları minimallaşdırmaq üçün yollar axtarılmalıdır. "Situasiyanı dəyişdirmək üçün təəssüf ki, söhbət belə gedə bilməz. Düşməni düzgün qiymətləndirməməmkə biz zamanı itirdik və kifayət qədər sərf etməyən mövcud halla üzləşməyə məcbur olduq", deyə fikirlərini tamamlayan Mnatsakanyan bir həqiqəti də unutmamalıdır - erməninin sonrakı ağlı işə düşərkən çox gec olur və Ermənistanın, erməni ictimaiyyətinin daha ağır bəlalara düçar olmamalrı üçün onlar bundan sonra bir daha "artsax" kəlməsini dillərinə belə gətirməməlidirlər və biz hələ Zəngəzuru və s. demirik!

**Rövşən RƏSULOV**



Mətanət MƏMMƏDOVA

# Müəllimliyin balı əvvəldən yüksək olmalı idi

**Müəllim bütün dünyada xüsusi olan bir peşədir. Çünki o, öyrədəndir, bütün sənətlərin, peşələrin qapısının açarıdır. Müəllim o qədər böyük savada, biliyə, dünyagörüşə malik olmalıdır ki, dərs verdiyi şagirdlərin hər birinin istəyini qarşılaya bilməli, onları, necə deyərlər, sabahkı həyata yetişdirməyi bacarmalıdır.**

Bir məsələyə nəzər salaq. Məsələn, bir sinifdə 20-25 şagird təhsil alırsa, onların hər birinin də bir arzusu vardır. Yəni məktəbi bitirəndən sonra hər biri bir sənətin, peşənin arxasınca gedəcəklər. Onların bu arzularını reallaşdıran bəs kimdir? Əlbəttə ki, müəllim. Əgər müəllim böyük savada, dünyagörüşə malikdirsə, təbii ki, dərs dediyi bütün uşaqları arzuları çərçivəsində elə istiqamətləndirəcəkdir ki, onların hər biri sabahkı həyatında öz mövqeyini tuta biləcək. Yox, əgər müəllim yuxarıda söylədiyimiz kimi deyilsə, belə olan halda dərs verdiyi şagirdlər gələcək həyatında bir yarımçıqlıq hiss edəcək. Bu da onların arzularının üzərindən bir xətt çəkmiş olacaq.

Ötən həftə aldığımız bir xəbər ürəyimizi dağa döndərdi desəm, yanılmaram. DİM sədrinin açıqlamasına görə ölkəmizdə bir ilk baş verdi: universitetlərimizdə müəllimliyin keçid balı hüquq fakültəsinə olan keçid balını üstələdi.

Maraqlıdır, məncə bu, elə bineyi-qədimdən belə olmalı deyildimi? Əlbəttə ki, belə olmalı idi. Hüquqşünası kim yetişdirir? Əlbəttə ki, müəllim. Bəs belə olan halda nə üçün müəllimliyə keçid balı hüquqa keçid balından yüksək olmamalı idi?

Yəni biz jurnalistlər dəfələrlə bu məsələyə münasibət bildirmişik. Hələ o zamanlar sözümüzü, fikrimizi demişdik ki, müəllimliyə keçid balı 200-300-400 arası idi. Lakin... Yəni əvvəldən belə olsaydı, heç 50-60 yaşlı müəllimləri sertifikasiya imtahanlarından keçirməyə də ehtiyac qalmayacaqdı. Universitetlərimizdə müəllimliyə keçid balının aşağı olması orta məktəblərimizdə çalışan, bir zamanlar çox yüksək göstəricilərlə ali məktəblərə daxil olan, hazırda yetirmələri ölkəmizdə aparıcı vəzifələrdə çalışan müəllimlərin də imtahana cəlbi ilə nəticələndi.

Əslində sertifikasiya imtahanının aşağı balla müəllim olub məktəblərdə gələcəyimiz olan uşaqları məhv edən müəllimlər arasında aparılması daha müvafiq olardı, nəinki həyatını müəllimliyə həsr edən, bu yolda saçlarını ağardan yaşlı, savadlı, göstəriciləri göz önündə olan müəllimlərə.

Yenə də çox şükürlər olsun, çox sevindirici, çox qürurverici haldır ki, gec də olsa, müəllimliyə qəbulun balları gündəmə gəldi. Çox şükürlər olsun. Heç vaxt heç nə gec deyil. Ümidvarıq ki, yaxın gələcəkdə müəllimliyə qəbulun yüksək balı savadı müəllim olmağa çatmayan abituriyentləri aradan çıxaracaq, onlar özlərinə və savadlarına müvafiq digər ixtisaslar seçəcəklər. Yüksək balla müəllim olanlar isə övladlarımızın taleyini tapşırdıqlarımız, yəni məktəblərimizdə dərs verməyə haqqı olanlar olacaqlar.

Beləliklə, lap çoxdan olmalı olan hadisənin bu günlər reallaşması ilə həqiqətən böyük bir uğurun təməli qoyuldu. Ölkəmizdə müəllimliyin balından yuxarı bal olmamalıdır. Əks təqdirdə, yenə deyirəm, bu, çox gülməli olan bir məsələdir. Ən yüksək balla müəllim olanlara isə düşünürəm ki, gələcəkdə sertifikasiya imtahanlarından keçmələri də gərək olmayacaq. Çünki onlar komanda olaraq savadlılar olacaqlar.

Sertifikasiya imtahanlarının məktəblərimizdə savadlı, savadsız, gənc yaşlı müəllimlərin hər birinə şamil edilməsini onların əksəriyyətinin nüfuzuna xələl gətirdiyini, incikliklərinin yaranmasını səbəb olduğunu nəzərə alsaq, müəllimliyə yüksək balla qəbulun bu prosesi sıxışdırıb aradan çıxarması da təhsil sistemində yeni bir qələbə olacaq, deyə bilərik.

Çox böyük ümidlərlə yüksək ballı müəllimlərimizlə gələcəyə, əsl, hərtərəfli təhsilə doğru!





# KREML:

## “Türkiyə Rusiya üçün dost ölkədir”

**Dmitri Peskovun "Rusiya ilə Türkiyə arasındakı əməkdaşlıq böyük potensiala malikdir" bəyanatı daha hansı reallıqları üzə çıxarır?**

**Son vaxtlar Rusiya və Türkiyə arasındakı münasibətlərin kifayət qədər etibarlılıq prinsiplərinə söykənməsi, eləcə də beynəlxalq siyasi baxış bucaqlarındakı müəyyən fikirlərininbir-birini tamamalaması daha çox müşahidə olunmaqdadır. Söz yox ki, belə bir mühitin mövcudluğu regiona da öz müsbət təsirlərini göstərir və həmin amil Rusiyada da yüksək qiymətləndirilməkdədir.**

”Rusiya ilə Türkiyə arasındakı əməkdaşlıq böyük potensiala malikdir”. SİA xəbər verir ki, Rusiyanın nüfuzlu ”İzvestiya” qəzeti Kreml rəsmisi Dmitri Peskovun fikirlərindən sitat gətirib. ”Türkiyə bizim üçün dost ölkədir və o bizim üçün çox əhəmiyyətli partnyordur, özü də beynəlxalq siyasətdəki nöqteyi-nəzərdə olduğu kimi həm də ticari-iqtisadi əməkdaşlıq planında da belədir”, deyə Peskov bildirib.





Onun sözlərinə görə, Ankara anti-Rusiya sanksiyalarına qoşulmayıb və bununla suveren, müstəqil xarici siyasət apardığını nümayiş etdirib. Peskov əlavə edib ki, Rusiya və Türkiyə qarşılıqlı hörmət prinsiplərinə sadiq qalaraq əməkdaşlıqlarını davam etdirirlər.

**Kiril Semyonov: ”Bu, ilk növbədə iqtisadi-maliyyə əməkdaşlığı ilə bağlıdır ki, həmin amil bəzi Qərb ölkələrinin Moskvaya münasibətdə birtərəfli sanksiyalar tətbiq etməsindən sonra özünü göstərdi”**

Mövzu ilə bağlı Rusiyanın beynəlxalq məsələlər şurasının eksperti Kiril Semyonov da diqqət çəkən fikirlərini önə sürüb. ”Vestnik Kavkaza” portalına danışan Semyonova görə, həm Rusiya, həm də Türkiyə birgə əməkdaşlıqdan özlərinə səmərələr qazana bilirlər. SİTAT: ”Bu, ilk növbədə iqtisadi-maliyyə əməkdaşlığı ilə bağlıdır ki, həmin amil bəzi Qərb ölkələrinin Moskvaya münasibətdə birtərəfli sanksiyalar tətbiq etməsindən sonra özünü göstərdi. Təbii ki, Türkiyə həmin sanksiyalardan yan keçməsi üçün öz resurslarını istifadə etməkdə maraqlıdır və onu da istisna etmir ki, buna görə əhəmiyyətli dərəcədə iqtisadi dividentlər əldə edir”.

”Həmçinin, İtaliyadan və s. Avropa ölkələrindən çıxan və Türkiyə üzərindən Rusiyaya gedən ikinci ixracı da xatırlatmaq olar. Türkiyədən Rusiyaya ixrac da artıb ki, Ankara hər iki halda heç də az olmayan maliyyə gəlirləri qazanır. Rusiya öz növbəsində maraqlıdır ki, Türkiyə ticari hab (nəhəng) kimi qalmaqda davam etsin və Rusiyaya qarşı yönəlmiş Qərb sanksiyaları bu vasitə ilə kompensasiya olunsun...” Semyonov deyib.

**Rusiyalı politoloq: ”Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, dünya beşdən ibarət deyil və daha çoxdur, Rusiya da çoxqütblü dünya tərəfindən çıxış edir”**

Rusiyalı politoloqun sözlərinə görə, Rusiya ilə Türkiyənin bir-birinə qarşı hörmət maraqları dünya düzənində Rusiya-Türkiyə baxışlarını reallaşdırır və eyni zamanda, birqütblü sistemi arxa plana keçirir. ”Burada Moskva və Ankaranın dünya düzəninə özəl yanaşmaları önəm kəsb edir. Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, dünya beşdən (BMT-nin Təhlükəsizlik Şurasının beş daimi üzvü) ibarət deyil və daha çoxdur, Rusiya da çoxqütblü dünya tərəfindən çıxış edir. Bu fonda əlbəttə ki, həm Rusiyanın, həm də Türkiyənin çoxqütblü yeni dünyadakı maraqları üst-üstə düşür və onların bir-birinə olan etibarları daha da artır”, deyə Rusiyanın beynəlxalq məsələlər şurasının eksperti hesab edir.

***Rövşən RƏSULOV***

# Əmir Teymurun ”reallaşmaq ehtimalı olan” arzusu..?



**“...Ermənistan rəhbərliyinin indiki, son dərəcə ehtiyatlı siyasəti bizim üçün gələcəkdə böyük risklərlə doludur”. SİA-nın erməni saytlarından əldə etdiyi məlumata görə, bu fikri ”Suveren Ermənistan” partiyasının lideri David Sanasaryan səsləndirib.**

Təbii ki, quyruqları qapı arasında qalanda quzuya dönmək ancaq bu xalq üçün xarakterikdir. Belə görünür ki, indi də həmin vəziyyətdədirlər.

”...Bu insanlar Kremlin birdənbirə xoşuna gəlməyəcək istənilən addımdan çəkinməyə çalışırlar. Onlar yeni müharibəyə səbəb olmamaq üçün belə addım atmağa çalışırlar, belə bir addıma dolayı yolla reaksiya verməməyə çalışırlar. Şəxsən mənim üçün belə bir siyasət son dərəcə problemlidir və gələcəkdə ölkəmiz üçün müsbət dəyişikliklərə səbəb ola biləcək heç nə ehtiva etmir”.

Qeyd edim ki, Sanasaryan deyir bunları. Onun fikrincə, indiki mərhələdə Ermənistanın siyasəti yalnız Bakının tələblərini yerinə yetirməyə yönəlib. O, Azərbaycanın Rusiya Federasiyasının səssiz razılığı şəraitində hərbi güc tətbiq etməsi ilə bağlı baş verənləri də məhz erməni təfəkkürünə uyğun izah edir və bütün bunların fonunda Ermənistanın bundan sonra da ehtiyatla davranmasını məsləhət bilir.

Hazırda ermənilər üçün çətin dövr olduğunu deyən partiya lideri, deyim ki, bundan çıxış yolunu da göstərir...və özü də necə.

Belə ki, Sanasaryan indiki vəziyyətdən çıxış yolunu Ermənistanın ehtiyatlı diplomatiyadan silahlı diplomatiyaya keçməsində görür. Hazırkı siyasətdən Ermənistan üçün hər hansı müsbət dəyişikliyə hətta nəzəri ümidlərin də olmaması fonunda, onun fikrincə, bu, mövcud vəziyyətdən yeganə çıxış yolu olaraq qalır.

Görən, nədir bu çıxış yolu.

Deyim ki, Sanasaryan bunu da göstərir, belə ki, erməniyə görə, düşmənin, (təbii ki, bizi nəzərdə tutur-A.B.) irəliləyişini dayandırmaq, vəziyyəti tarazlığa qaytarmaq yalnız silahla mümkündür. Silahlandırmaq, hazırlamaq, imkan daxilində iqtisadiyyatı inkişaf etdirmək lazımdır. Bizim başqa yolumuz yoxdur. Nəzərə alsaq ki, imkansızlıq var. Rusiya üçün Ermənistana ordunun silahlandırılması və modernləşdirilməsi prosesində kömək etmək üçün xüsusi imkanlar, nəyin bahasına olursa olsun, silah tədarükünün yeni yollarını tapmaq lazımdır, çünki Ermənistanın gələcəyi və mövcudluğu bundan asılıdır.

...Bax, budur Azərbaycanın humanistlik göstərib sülh təklif etdiyi mənfur erməni simasızlığı. Onlar, bir dahinin dediyi kimi, xüsusi bacarıqla olmasa da, böyük hiyləgərliklə, böyük riyakarlıqla sistematik, davamlı olaraq heyrətləndirici inadla eyni avazı çalırlar.

P.S. O vaxt Böyük Əmir Teymurun ”...tarix mənə iki şeyi bağışlamayacaq: etnos kimi erməniləri məhv etmək istəməsini və bunu etməməsini...deyəsən bu dəfə ermənlər bunun birincisini özləri bizi həyata keçirməyə məcbur edəcəklər.

***Ağasəf Babayev***

# Müsavatçı hüquq müdafiəçisi partiya başqanlığına "od püskürdü"!

## Novella Cəfəroğlu: "Müsavat artıq cılız, adi bir partiyaya çevriləcək"

**Məlum olduğu kimi, Müsavat partiyasının iki üzvü - hüquq müdafiəçisi Novella Cəfəroğlu, eləcə də vəkil Osman Kazımov Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevi qalib Lider qismində təbrik etmələrinə görə təmsil olunduqları siyasi təşkilatın rəhbərliyi tərəfindən yersiz ittihamlara və təzyiqlərə məruz qalıblar. Artıq bir qrup hüquq müdafiəçisi bununla bağlı bəyanat yayaraq baş verən olayı qəbulolunmaz adlandırıb və Müsavat partiyasının rəhbərliyini "bolşevizm təfəkküründə" ittiham ediblər.**



Eyni zamanda, bu gün özlərini "Elçibəy yolçuları" adlandıran psevdomüsavatçılar hələ də radikalizm və naşı siyasət üzərində qaldıqlarının fərqinə varmayaraq həm də bir həqiqəti unudurlar ki, onların burunlarından o tərəfi görə bilməmələri onsuz da cəmiyyət arasında olmayan nüfuzlarını ayaqlar altına atır. Belə ki, tarixi Müsavat adını özünküləşdirməklə bunu özlərinə, daha dəqiq desək, şəxsilərinə siyasi maraq aləti edən partiya rəhbərliyinin mövcud davranışları sözün həqiqi mənasında "vəhşi bolşevizim", yaxud "yam-yam qırmızılar" reallığını sərgiləyir.

### "Bir santimetr torpağı ala bilmirdik, bu adam Qarabağı azad etdi"

Bu məqamda təmsil olunduqları Müsavat partiyasının başqanlığı və digər rəhbər orqanları tərəfindən təzyiqlərə məruz qalan Novella Cəfəroğlu mətbuata müsahibəsində bənzər fikirləri ilə çıxış edib və onu da bildirib ki, uzun illər düşmən tapdağı altında qalmış Qarabağ torpaqlarının azad edilməsində siyasi arenadalarda misilsiz xidmətlər və şücaətlər göstərən Müzəffər Ali Baş Komananı təbrik etmələrinə qarşı çıxanlar əslində düşmən, yəni işğalçı erməni mövqeyini dəstəkləmiş olurlar. Haqlı yanaşma kimi qiymətləndirilə bilinən bu amilə Novella xanımın sözügedən müsahibədə irəli sürdüyü fikirləri ilə şərh edək.

S?A xəbər verir ki, bu fikirləri Müsavat partiyasının üzvü, tanınmış hüquq müdafiəçisi Novella Cəfəroğlu sözügedən müsahibəsində bildirib: "Sözüm təkcə Müsavat partiyasında deyil, müxalifətdə olanların hamısınadır. Deyirdilər ki, Prezident Qarabağı azad etsin, 30 il də otursun öz kürsüsündə. Bir santimetr torpağı ala bilmirdik, bu adam Qarabağı azad etdi. Siz bu gün Prezidenti təbrik etməyəcəksiniz, bəs kimi təbrik edəcəksiniz".

### "...İstəyirlər, çıxarsınlar... Çıxaracaqlar, gedib Türkiyədə təmiz müsavatçıların "kruq"una girəcəm"

O, Laçının geri alınması münasibətilə Ali Baş Komandan İlham Əliyevi təbrik etdiyi üçün Müsavat Partiyasının başqan müavini Osman Kazımovun partiyadan kənarlaşdırılması təklifini irəli sürənlərə verdiyi cavabında bildirib: "...İstəyirlər, çıxarsınlar... Çıxaracaqlar, gedib Türkiyədə təmiz müsavatçıların "kruq"una girəcəm. Məni Müsavatdan çıxarsınlar, bəs Müsavatı mənim ürəyimdən çıxara bilərlər? Bir az tolerant olun. Bu, nə bolşevizimdir? Rusun bolşeviklləri kimi - "Bizimlə olmayan bizə qarşıdır". Təbrik də edəcəyik, hər şey də. Adamın Allahı var. Əbülfəz bəyin xanımı rəhmətə gedəndə zəng edib dedim ki, aparırlar Naxçıvana, qohumları isə gedə bilmir. Mehriban xanım təyyarə verdi. Bəs mən Mehriban xanıma "sağ olun" deməyim? Məni və Osman Kazımovu söyənlər "əldəqayırma" müsavatçıdırlar. Biz əsl müsavatçıyıq. Danışığa da gedəcəyik, tənqid lazım olanda da tənqid edəcəyik. Bu, nə sözdür, bu, nə davranışdır, bu, nə münasibətdir?"

Müsavatdakı bolşevik təfəkkürlülərin digər müxalifət partiyalarında da olduğunu deyən Novella Cəfəroğluya görə, Müsavatda ortalığı qatmağa çalışanlar da var ki, bu da xoşagəlməz məsələdir: "Bu son məsələ ilə bağlı Müsavatda məni yalnız bir-iki nəfər, o cümlədən Səxavət Əlisoy müdafiə etdi... Mənim üçün ən vacibi Vətəndir. Bizim vətənimizin azadlığı Qarabağla bağlıdır və onu Prezidentimiz işğaldan azad edib... Bizə ərazi bütövlüyümüz lazımdır. Doğrudur, korrupsiya da, haqsızlıq da və digər neqativliklər də var. Amma biz bunu birlikdə çözməli, həll etməliyik... Mən dövlətin, millətin yanındayam".

### "Bütün dünyaya göstərdi ki, bir Prezident dövlətinin necə müdafiə edə bilər"

Hüquq müdafiəçisi bildirib ki, Azərbaycanın yüksək mərtəbəyə qaldırılması, 44 günlük müharibədə qalib gəlməsi əlbəttə ki, çoxlarını qıcıqlandırır, qısqandırır: "Baxın, Ukrayna neçə aydır ki, müharibə aparır, amma Azərbaycan 44 gün ərzində öz ərazilərini işğaldan azad etdi, özü də bir erməni mülkisinə toxunmadı. İndi niyə mən Prezidentimə çox sağ ol deməyim? Unutmayaq ki, müharibə dövründə informasiya blokadasını məhz Prezidentimizin özü qırdı. Bütün dünyaya göstərdi ki, bir Prezident dövlətinin necə müdafiə edə bilər. Qurban olum, axı bütün bunlar hamımızın gözü önündədir və bunu inkar etmək olmaz ki... Hamımız-müxalifətli-iqtidarlı televizorun önündə əyləşib, həyəcanla izləyirdik ki, Prezidentimiz kiminlə görüşüb, kiminlə danışır, nə deyir? Mənim xaricdə yaşayan qohum-əqrəbalarım da deyirdi ki, Prezidentimiz necə gözəl danışır, necə gözəl Azərbaycanı müdafiə edir. İndi, sizcə, demokratiya deyən ölkələr İlham Əliyevin hakimiyyətdə qalmasını istəyir? Əlbəttə ki, yox, onlar çox qısqanclıqla yanaşırlar. Bu adam Prezident ekstremal vəziyyətdə necə olmalıdır, onu dünyaya göstərdi. 15 il bunun üçün hazırlıqlar edib. Bunu görməmək olar? Gəlin, dialoqa gedin, Azərbaycanı ağır vəziyyətdən çıxartmaq üçün birlikdə iş görün, birləşin..."

### "İqtidarlı-müxalifətli birgə Zəngəzur dəhlizinin açılması üçün çalışmalıyıq"

Novella Cəfəroğlu digər bir məqama da toxunaraq bildirib ki, bu gün dünyanın gözü Zəngəzur dəhlizindədir: "Zəngəzur dəhlizi Azərbaycanı lap ucalara qaldıracaq. Lakin buna mane olmaq istəyənlər var. Zəngəzur dəhlizinin açılması Ermənistanın özünə də lazımlıdır, onların ölkələrə birbaşa çıxışı olacaq, ən əsası Azərbaycan və Ermənistanın təhlükəsizliyi təmin olunacaq, iqtisadi vəziyyət yaxşılaşacaq. Çox istəyirdik ki, Zəngəzur dəhlizi ilə bağlı bir forum keçirək. Hətta bu barədə xaricdə olan bir neçə akademikə, ziyalılara da müraciət etmişik, onlar da ikiəlli bu cür forumun keçirilməsini istəyir. Beləliklə, iqtidarlı-müxalifətli birgə Zəngəzur dəhlizinin açılması üçün çalışmalıyıq. Biz hələ bilmirik, bizə zərbə hansı tərəfdən gələcək, hər an buna hazır olmalıyıq".

Hüquq müdafiəçisi Müsavat partiyasının başqanı Arif Hacılının idarəçiliyinə neqativ münasibət bildirməklə deyib ki, onun 8 illik rəhbərliyi dövründə siyasi təşkilat bir addım da olsun irəliləyə bilməyib, əksinə istefalar baş qaldırıb və s.

"Müsavat partiyasının irəli getdiyini görmürəm. Bəli, onlar öz ideyasında qalırlar, lakin axı o ideyanın dəyişməsi var da, amma bu dəyişmə yolu hələ görünmür. Cəmiyyətə, mühitə inteqrasiya məsələsi var, amma mən bu gün heç bir partiyanın inteqrasiya siyasətini görmürəm. Yalnız bir-iki gənc partiya var ki, onlarda müəyyən qədər irəliləyiş müşahidə olunur. Görünür ki, nə isə edir və yaxud etməyə çalışırlar. Məsələn, müşahidə edirəm ki, müəyyən gənclər var idi ki, Turan məsələsini qaldırmışdı, artıq onlar gedib görüşlər, danışıqlar keçirirlər. Həmçinin elə partiyalar var ki, onlar şəhid ailələri ilə görüşür, onların uşaqlarının problemlərini qaldırırlar. Lakin Müsavatda və yaxud digərlərində bunu görmürəm", deyə Novella Cəfəroğlu bildirib və istisna etməyib ki, Müsavat partiyası belə dava edərsə cılızlaşacaq: "Əks təqdirdə, Müsavat artıq cılız, adi bir partiyaya çevriləcək".

*Rövşən*




## Almaniya Ukraynaya tank vermək istəmir..?





**Almaniya kansleri Olaf Şolz Ukraynanın baş naziri Denis Şmıxalla danışıqlar zamanı Kiyevə "Leopard 2" tanklarının tədarükü ilə bağlı mənfi mövqe nümayiş etdirib.**

SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, Almaniyanın gündəlik "Welt" nəşri Ukrayna administrasiyasındakı mənbələrə istinadən Şolzun tədarükdən imtina etməsi ilə bağlı yazıb.

Beləliklə, nəşrin yazdığına görə, alman tanklarının Ukrayna tərəfinə göndərmək şansları azdır. O da qeyd olunur ki, siyasətçilərin bu məsələ ilə bağlı danışıqları ümumi və qeyri-spesifik olub.

Nəşrin həmsöhbəti onu da bildirib ki, Şmıxal Almaniya sənayesinin Ukraynanı birbaşa "Leopard 2" tankları ilə təmin etmək təklif etsə də, amma kanslerin mövqeyi mənfi və dəyişməz olaraq qalıb. Onu da qeyd edək ki, bundan əvvəl Şmıqal Almaniyanın "Leopard 2" tanklarının Kiyevə mümkün tədarükü ilə bağlı Şolza "konkret təkliflər" verdiyini bildirib.

"...Mövzunu müzakirə etdik. Biz hətta Almaniyanın Ukraynaya bu tankları necə tədarük edə biləcəyi ilə bağlı təkliflər də vermişik"-deyən Şmıqal, söhbətin təfərrüatlarını açıqlamaqdan imtina edib.

*Ağasəf Babayev*

# Rusiyalı ekspertlər: “Moskva özünü etibarsız Paşinyan rejimindən uzaqlaşdırır”

**İkinci Qarabağ müharibəsi 2020-ci il noyabrın 10-da Üçtərəfli Bəyanatın imzalanması ilə başa çatdı. Həmin gün Azərbaycan prezidenti və Ermənistanın baş naziri Rusiya prezidenti Vladimir Putinin vasitəçiliyi ilə birgə sənəd imzalayıblar. Bunu faktiki olaraq Ermənistanın kapitulyasiyası hesab etmək olar. Lakin artıq iki ilə yaxındır ki, Ermənistan Azərbaycanla sülh müqaviləsinin imzalanmasını ləngidir. Ekspertlər prosesə bağlı fikirlərini Caliber analitik mərkəzinə bildiriblər. Rəyləri oxucularımıza təqdim edirik.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*









Politoloq, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin Sosiologiya və Politologiya fakültəsinin dekanı Aleksandr Şatilovun vurğuladığı ilk məsələ Rusiya rəhbərliyinin Azərbaycanın Laçın rayonunu təmizləməsinə kifayət qədər sakit reaksiya verməsidir ki, bu da onun fikrincə, hazırda Moskva ilə İrəvan arasında kifayət qədər soyuq münasibətlərdən xəbər verir.

”Üstəlik, Ermənistandakı qərbyönlü qüvvələr Rusiyanı (onlar Qarabağı təslim etdiyini deyirlər) iblisləşdirməyə çalışdıqca, Rusiya Federasiyasının rəhbərliyi özünü etibarsız Paşinyan rejimindən, ümumiyyətlə, Ermənistandan mümkün qədər uzaqlaşdırmağa çalışır. Birincisi, hazırda Moskva üçün Ukrayna istiqaməti daha vacibdir və İrəvan burada ya kömək etmək istəmir, ya da edə bilməz. İkincisi, erməni elitasının ABŞ və Aİ ilə fəal təmasları, çox vaxt Rusiyanın maraqlarının zərərinə olması Kremli qəzəbləndirib və o, erməni tərəfinə uzunmüddətli hərbi-siyasi və iqtisadi dəstəyinə cavab olaraq xəyanət görüb. Üçüncüsü, Rusiya Federasiyası ilə Qərb arasında Ukrayna uğrunda gərgin mübarizə şəraitində Türkiyə və Azərbaycanın neytrallığını təmin etmək, müəyyən güzəştlər bahasına olsa belə, Moskva üçün vacibdir. Deməli, görünür, hazırda Rusiya ilə Ermənistan arasında münasibətlər dərinləşən böhran vəziyyətindədir”, - deyə A.Şatilov deyib.

Bu arada, artıq avqustun 31-də İlham Əliyevlə Nikol Paşinyan arasında Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin iştirakı ilə Brüssel görüşü ”Brüssel Moskvanı Ermənistandan sıxışdırıb çıxarmağamı çalışır?” kimi ağlabatan sual yaradır.

Milli Enerji Təhlükəsizliyi Fondunun eksperti, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin elmi işçisi Stanislav Mitraxoviç Aİ-nin vasitəçilik səylərini olduqca şübhəli hesab edir.

”Düşünürəm ki, Moskvanın Ukraynadakı hazırkı əməliyyatla bağlı olduğu bir şəraitdə diplomatik, hərbi və iqtisadi fəaliyyətin bütün digər sahələri üçün kifayət qədər qüvvə yoxdur. Bütün bunların öhdəsindən gəlmək üçün sadəcə bürokratik aparat belə kifayət etmədiyindən Ermənistan-Azərbaycan nizamlanması üzrə fəal vasitəçilik istər-istəməz geriləyir. Və digər oyunçular, o cümlədən Aİ, vəziyyətdən istifadə etməyə çalışır. Lakin bu, Aİ-nin bu məsələdə Rusiya Federasiyasının yerini tuta biləcəyi anlamına gəlmir.

Aİ-nin beynəlxalq münaqişələri uğurla həll etməsi ilə bağlı hələlik nümunələr olmayıb və etməyə çalışdığı hər şey uğursuz alınıb. Beləliklə, Aİ Balkanlardakı əsas məsələləri NATO-nun köməyi ilə həll etdi. İndi Rusiyanı güc yolu ilə cilovlamaq üçün hər cür tapşırıqlar da NATO vasitəsilə həyata keçirilir. Başqa sözlə, Aİ-nin təkbaşına nəsə etdiyinə dair nümunələr yoxdur. Məsələn, Serbiya və Kosovoda KFOR qüvvələri fəaliyyət göstərir, lakin bu, yenə Aİ deyil, NATO-ya çox yaxın olan ayrıca strukturdur. Yəni, mən Aİ-nin özünün nəyisə faktiki olaraq həll edəcəyi ehtimalını görmürəm.

Bundan başqa, hesab etmirəm ki, Bakı və İrəvan hansısa sənədi imzalamaq ərəfəsindədir. Hər kəsə uyğun olan müqavilələr hələ görünmür. Və bu tendensiya ondan irəli gəlirdi ki, Rusiya indi rahatdır, ona görə də münaqişə tərəfləri güvənmək üçün başqa oyunçular axtarırlar. Bu arada Aİ Rusiyanı mümkün qədər əvəz etməyə çalışır”, - S.Mitraxoviç bildirib.







ŞƏRHLƏR

***Tərcümə - Elçin Bayramlı***

SƏS
7 sentyabr
2022-ci il

# Uşaqlara vərdiş necə aşılanır?

"Uşaqlara müəyyən vərdişləri aşılamaq üçün uşaqla emosional bağ qurmaq lazımdır". Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Fidan Nəzirova bildirib.

Psixoloqun sözlərinə görə, bunu müəyyən oyunlarla etmək mümkündür: "Oğlandısa oğlana aid oyuncaqlara, qız uşağıdırsa kuklarla və s. başqa cür oyunlar qurub vərdişini aşılamaq olar. Uşaqlara müəyyən vərdişi aşılamaq üçün ən gözəl metodlardan biri Art terapiyadır, rəsm üzərindən müəyyən şəkillərlə uşağın emosional gərginliyini azaldıb bir çox vərdişlər yaratmaq olar. Neqativ vərdişləri dəyişməkdə mümkündür, əks vərdişə çevirmək üsülü ilə asanlıqla neqativ vərdişlərin öhdəsindən də gəlmək olur".

*Banuçiçək Hüseynli*





# Ölkəmizdə ərzaq təhlükəsizliyinə qarşı necə mübarizə aparılır?

**"Azərbaycan ərzaq təhlükəsizliyini formalaşdıran və dəstəkləyən ölkələrdən biridir. Nəzərə alsaq ki, Rusiya-Ukrayna müharibəsi fonunda dünyada müşahidə edilən ərzaq qıtlığı və ərzaq məhsullarının qiymətinin artması ölkələrdə ərzaq təhlükəsizliyinə yeni baxışın ortaya qoyulmasına gətirib çıxardır". Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov bildirib.**

İqtisadçı-ekspertin sözlərinə görə, Azərbaycan bir tərəfdən ərzaq ehtiyatlarını artırmaqla ərzaq təhlükəsizliyinin formalaşmasına dəstək olur, digər tərəfdən yerli istehsalın genişləndirilməsi eyni zamanda ərzaq məhsullarının qiymətlərindəki artımların tənzimlənməsi məqsədi daşıyır: "Çünki idxal inflyasiyası var və bu hal da təbii olaraq qiymət artımlarına təsir göstərir. Məqsəd ondan ibarətdir ki, məhz yerli istehsalın genişləndirilməsi və ehtiyatların artırılması yolu ilə xarici ölkələrdə müşahidə edilən qiymət artımlarının Azərbaycanın istehlak bazarına təsirlərini minimalaşdırmaq mümkün olsun. Bu kontekstdə təbii ki, məhz Azərbaycan daxili ərzaq təhlükəsizliyinin formalaşmasına xüsusi diqqət ayırır və bu istiqamətdə sistemli işlər həyata keçirir. Təbii ki, ərzaq təhlükəsizliyinin əsas istiqamətlərindən biri ərzaq ehtiyatlarının genişləndirilməsi eyni zamanda ərzağın əl çatımlılığının artırılmasıdır. Ona görə də cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycanda ərzaq təhlükəsizliyinin qorunması, o cümlədən istehlak bazarındakı tarazlığın saxlanılmasına xidmət edir. Bu xüsusən son aylar dünya iqtisadiyyatında müşahidə edilən resessiya və bir sıra ərzaq məhsullarının dünya bazarındakı qıtlığı fonunda Azərbaycanda istehlak bazarının qorunub saxlanılması məhz ərzaq təhlükəsizliyi istiqamətində aparılan siyasətin nəticəsi olaraq qiymətləndirilir".

*Banuçiçək Hüseynli*

# Bir gecədə 2 mağazanı qarət edən şəxs "isti izlər"lə tutulub

Balakəndə bir gecədə iki mağazadan oğurluq edilib. Rayon Polis Şöbəsinə müraciət edən zərərçəkənlər onlara məxsus obyektlərdən ümumilikdə 1100 manat pulun, eləcə də danışıq kartlarının və mobil telefonun oğurlandığını bildiriblər.



DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan Trend-ə verilən məlumata görə, məlumat daxil olan kimi polis əməkdaşları tərəfindən hadisə yerlərinə baxış keçirilib və ilkin araşdırmalar zamanı cinayətlərin eyni şəxs tərəfindən törədildiyi müəyyən olunub. "İsti izlər"lə keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluqları etməkdə şübhəli bilinən rayon sakini İzzət Məsiyev saxlanılıb. Saxlanılan şəxs ifadəsində törətdiyi cinayətləri edib və oğurladıqları onun yaşadığı evdən maddi sübut kimi götürülərək istintaqa təhvil verilib.

Qeyd edilən faktlarla bağlı Balakən rayon Polis Şöbəsinin İstintaq bölməsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb,istintaq-əməliyyat tədbirləri davam etdirilir.



# Küləkli hava şəraiti nə vaxta qədər davam edəcək?

**"Sentyabrın 7-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir". Bu fikirləri SİA-ya açıqlamasında Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova deyib.**

Onun sözlərinə görə, arabir güclənən şimal-qərb küləyi əsəcək: "Sentyabrın 8-də havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın maksimal temperaturu 20-24 dərəcə isti olacaq. Bölgələrdə də yağıntılı hava şəraiti davam edəcək. Bəzi yerlərdə şimşək çaxacağı arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimal olunur. Gözlənilən yağıntılarla əlaqədar çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından qısamüddətli sel keçəcəyi istisna olunmur. Ölkə ərazisində müşahidə olunan qeyri-sabit küləkli və yağıntılı hava şəraiti sentyabrın 8-i gündüzədək davam edəcək".

*Abutel İlhamqızı*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**